(Sədəqə) Allah yolunda canından keçərək (dolanmaq, ruzi kəsb etmək üçün) yer üzündə hərəkət edə bilməyən (və ya buna imkanı olmayan) yoxsullar üçündür. Belə şəxslər həyalı olub dilənçilikdən çəkindiklərinə görə nadanlar onları dövlətli hesab edirlər. (Ya Rəsulum!) Sən isə onları üzlərindən tanıyırsan. Onlar heç kəsdən israrla bir şey istəməzlər. Sizin mallarınızdan (bunlara) nə verdiyinizi, şübhəsiz ki, Allah bilir!

*(Qurani-Kərim, əl-Bəqərə, 273)*

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib. Dövlətimizin başçısı İstanbulun Atatürk Hava Limanında törədilmiş dəhşətli terror aktı nəticəsində çoxlu sayda insanın həlak olması ilə əlaqədar Türkiyə Prezidentinə, ölənlərin ailə üzvlərinə və Türkiyə xalqına dərin hüznlə başsağlığı verib.Prezident İlham Əliyev terrorçuların çirkin əməllərini qətiyyətlə pisləyərək Azərbaycanın həmişə olduğu kimi, bu ağır günlərdə də Türkiyənin yanında olduğunu vurğulayıb.

Türkiyə Prezidenti göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirib.


www.scwra.gov.az

# Cəmiyyət və Din

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 06 (299) / İYUN 2016-cı il




"... Dünyanın müxtəlif yerlərində yeni münaqişə ocaqları yaradılır. Yaxın Şərqdə artıq bir neçə ölkə idarəedilməz vəziyyətə düşüb. ... Yaxın Şərqdə, əfsuslar olsun ki, müharibələr alovlanır. Avropada miqrantlarla bağlı dərin böhran yaşanır. Bu, eyni zamanda, dəyərlər böhranıdır. İstər-istəməz miqrant böhranı Avropada islamofobiya meyillərini gücləndirir. Bu, həm müsəlmanlar, həm Avropa üçün çox böyük təhlükədir. ... İndiki şəraitdə, dünyada gedən çox ağır proseslər şəraitində, əlbəttə ki, Azərbaycan nümunəsi özünü daha da gözəl şəkildə büruzə verir. Deməli, mümkündür ki, bütün konfessiyaların nümayəndələri bir ailə kimi yaşasınlar. Mümkündür ki, multikulturalizm meyilləri güclənsin. Mümkündür ki, bir ölkədə dini, milli zəmində heç vaxt qarşıdurma olmasın. Nəinki qarşıdurma, heç anlaşılmazlıq da heç vaxt olmayıb və əminəm ki, olmayacaq. Yəni, bu gün Azərbaycan çox fərqli bir inkişaf modelini nümayiş etdirir. Ona görə yox ki, biz kiməsə nəyisə sübut etmək istəyirik. Sadəcə olaraq, bizim həyat tərzimiz belədir".

*Prezident İlham Əliyevin müqəddəs Ramazan ayı münasibətilə Şeyxülislam Allahşükür Paşazadənin öz iqamətgahında açdığı iftar süfrəsindəki nitqindən*

Bakı, 17 iyun 2016-cı il.

## PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ƏMƏKDAŞLARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Bağırov Kamil Zülfi oğlu
Əliyeva Yaqut Qəşəm qızı
Məmmədov Qağayı Məmmədağa oğlu
Zülfüqarov Əliheydər Nizami oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Bədirov Miryəhya Rəsul oğlu
Əliyev Ziraddin Çoban oğlu
Həsənova Güney Elşən qızı
Hüseynov Oqtay Nəsir oğlu.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 21 iyun 2016-cı il.

### Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 15 illiyinə həsr olunmuş konfrans keçirilib



səh. 3



### Fransalı senatorlara Azərbaycandakı multikultural və tolerant mühit barədə məlumat verilib

səh. 4



### Şəki İslam mədrəsəsində hafizlərin buraxılış mərasimi keçirilib

səh. 8

### Dövlət Komitəsinin sədr müavini Astarada dindarlarla görüşüb



səh. 10

### İslamafobiyanı kimlər və necə yaradırlar?

səh. 12

# Prezident İlham Əliyev Nardarandakı "Rəhimə Xanım" məscid-ziyarətgah kompleksi ilə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Sabunçu rayonunun Nardaran qəsəbəsindəki "Rəhimə Xanım" məscid-ziyarətgah kompleksi ilə tanış olub.

"Rəhimə Xanım" məscid-ziyarətgah kompleksi Azərbaycanın ən qədim dini məbədlərindən biridir. VIII əsrdə inşa olunan bu ziyarətgah əhali və dövlət tərəfindən bu günədək qorunub saxlanılıb.

Qeyd edək ki, 1994-cü ildə Ulu Öndər Heydər Əliyev bu müqəddəs məkanı ziyarət edib.

Azərbaycan Prezidentinin dini və tarixi abidələrə qayğıkeş münasibəti burada da hiss olunur. Prezident İlham Əliyev 1998-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsində çalışarkən bu ziyarətgahda olub. Dövlətimizin başçısının həmin vaxt bu müqəddəs məkan üçün 10 hektar torpaq sahəsinin ayrılması barədə qaldırdığı təşəbbüs nəticəsində ziyarətgahın ərazisi xeyli genişlənib. Prezident İlham Əliyev, həmçinin 2004-cü ildə bu dini kompleksə hədiyyələr təqdim edib.

"Rəhimə Xanım" məscid-ziyarətgah kompleksi ilə tanışlıqdan sonra xatirə şəkli çəkdirilib.

# Zirə Cümə məscidi kompleksi istifadəyə verilib

## *Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərasimdə iştirak edib*





İyunun 22-də Zirə Cümə məscidi kompleksi istifadəyə verilib.

Məscid kompleksi Aydın Qurbanov adına Fond tərəfindən, xeyriyyəçi Aydın Qurbanovun oğlu Səməd Qurbanovun təşəbbüsü ilə inşa olunub.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva məsciddə yaradılan şəraitlə tanış olublar.

Azərbaycanda dini-mənəvi dəyərlərin qorunmasına hər zaman yüksək diqqət göstərilib. Həm Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti illərində, həm də Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımızın dini-mənəvi dəyərlərinin qorunması və inkişafı diqqət mərkəzində saxlanılıb. Son bir neçə ildə ölkədə onlarla məscid, ibadətgah və dini ziyarətgah təmir olunaraq xalqın istifadəsinə verilib. Təbii ki, bu prosesdə Heydər Əliyev Fondu da xüsusi fəaliyyəti ilə seçilib. Xəzər rayonunun Zirə qəsəbəsində Zirə Cümə məscidinin istifadəyə verilməsi milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlərdəndir.

Zirə Cümə məscidi kompleksi paytaxtın ən qədim dini ibadətgahlarından biri olub. Uzun keçmişlər bu dini ocağın da həyatında öz izini qoyub. Tədricən yararsız vəziyyətə düşən məscidin ərazisində 2015-ci ilin əvvəllərindən başlanan tikinti işləri qısa vaxtda yeni məscid kompleksinin yaranması ilə nəticələndi. Yüksək keyfiyyətlə aparılan inşaat işləri sayəsində paytaxtın ən gözəl dini ibadətgahlarından biri yenidən öz qapılarını insanların üzünə açdı.

Ümumi sahəsi 3 min 400 kvadratmetr olan məscid kompleksinin hündürlüyü 30 metr olan 2 möhtəşəm minarə bəzəyir. Məsciddə dini ayinlərin icra olunması, insanların rahat ibadət etmələri üçün hər cür şərait yaradılıb. Burada eyni vaxtda 400 insan ibadət edə bilər. Bundan əlavə, ərazidə 250 nəfərlik mərasim zalı yaradılıb. Kompleksin əsas hissələrindən biri olan zalda dini mərasimlərin keçirilməsi üçün bütün tələblər nəzərə alınıb. Kompleksin ərazisində kişi və qadınlar üçün ayrıca dəstəmazxanalar yaradılıb. Texniki və yardımçı otaqlar da məscid kompleksinin əhəmiyyətini daha da artırır. Kompleksin ərazisində geniş yaşıllaşdırma işləri görülüb.

Kompleksin axundu sakinlər adından Azərbaycanın birinci xanımını salamlayaraq Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi ilə Xəzər rayonunda böyük abadlıq və quruculuq işlərinin görüldüyünə görə təşəkkürünü bildirib. Qeyd edib ki, indi rayonda yeni məktəblər, xəstəxanalar, stadionlar qurulub.

Zirə Cümə məscidinin istifadəyə verilməsinin Qurani-Kərimin nazil olduğu Ramazan ayına təsadüf etdiyini deyən məscidin axundu ölkəmizdə dini-mənəvi dəyərlərin qorunub saxlanmasına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlığını bildirib. İyirmi dörd ildir ki, bu məsciddə fəaliyyət göstərdiyini deyən dini ibadətgahın axundu bundan sonra da məscidin insanlara xidmət edəcəyini vurğulayıb, sakinlərin sevincinin həddi-hüdudu olmadığını söyləyib.

Müqəddəs Ramazan ayında yeni məscidin açılışı münasibətilə xalqımızı təbrik edən Mehriban Əliyeva son illər Azərbaycanda həm dövlət, həm də Heydər Əliyev Fondu tərəfindən yüzlərlə məscidin tikildiyini bildirib. Heydər Əliyev Fondunun prezidenti xüsusi qeyd edib ki, təkcə Xəzər rayonunda dörd məscid yenidən inşa olunub.

Xəzər rayonunun sakinləri onlara bəxş edilən sevincə görə minnətdarlıqlarını bildiriblər. Milli Məclisin deputatı Mehriban Əliyeva Xəzər rayonunun sakinləri ilə hər görüşünü məmnunluqla xatırlayıb, fəaliyyətində onların dəstəyini, məhəbbətini hiss etdiyini vurğulayıb. Mehriban Əliyeva qəsəbə sakinlərinə onun böyük hörmətini və təbriklərini çatdırmağı xahiş edib.

Heydər Əliyev Fondunun prezidentinə Qurani-Kərim hədiyyə olunub.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 15 illiyinə həsr olunmuş konfrans keçirilib

***İyunun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) yaradılmasının 15 illiyi ilə bağlı "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi–15: Dünən, bu gün və sabah" adlı konfrans keçirilib.***

Əvvəlcə Dövlət Komitəsinin kollektivi Fəxri xiyabanda Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra komitənin kollektivi Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Tədbiri giriş sözü ilə açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdəki dini durum və rəhbərlik etdiyi qurumun fəaliyyəti haqqında məlumat verib. O qeyd edib ki, Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə qurulub. Azərbaycanda dövlət tərəfindən dinə diqqət və qayğı hər zaman özünü büruzə verir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkədə fəaliyyət göstərən ayrı-ayrı dini icmalara yardımlar göstərilir.

Diqqətə çatdırılıb ki, Dövlət Komitəsi yarandığı gündən indiyədək fəaliyyətini xeyli genişləndirib, regional bölmələrinin sayı artırılıb. Komitə müvafiq dövlət qurumları ilə sıx əməkdaşlıq edir.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Allahşükür Paşazadə Azərbaycanda dini sahədə heç bir problemin olmadığını diqqətə çatdırıb. Bildirib ki, Dövlət Komitəsi ilə dindarlar arasında əməkdaşlıqda bir harmoniya var. Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və Dini Məsələlər üzrə Dövlət Müşavirliyi Xidmətinin yaradılması da dindarların işini xeyli asanlaşdırıb. Milli Məclisdə ictimai birliklər və dini qurumlar komitəsinin yaradılmasını da yüksək qiymətləndirən şeyxülislam müvafiq qurumlar arasında görüşün keçirilməsinin önəmini qeyd edib.

Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini yüksək qiymətləndirib. Bildirib ki, Azərbaycanda multikultural ənənələrin qorunması və saxlanmasında Dövlət Komitəsinin böyük rolu var. Dövlət müşaviri Komitənin bir qrup əməkdaşının Azərbaycan Prezidenti tərəfindən təltif edildiyini diqqətə çatdırıb.

Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev əsrlər boyu yəhudi xalqının Azərbaycan xalqı ilə qardaş olduğunu, sülh şəraitində



yaşadığını və hər zaman da yaşayacağını vurğulayıb.

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov ölkəmizdə dini sahədə sabitliyin olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, Azərbaycanda dini proseslərdə stabillik və qarşılıqlı anlaşma var. Bu sahədə çalışan qurumların fəaliyyəti təqdirəlayiqdir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti düzgün istiqamətdə qurulub. Azərbaycanda hər bir sahədə olduğu kimi, dini sahədə də düzgün model tətbiq olunub.

Rus Pravoslav Kilsəsi Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Roma-Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete, Alban-Udi xristian dini icmasının sədri Robert Mobili Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaranmasının ildönümü münasibətilə təbriklərini çatdırıblar. Onlar Azərbaycanda multikultural ənənələrin və tolerantlığın yüksək səviyyədə təmin edildiyini vurğulayıblar.

Qafqaz Müsəlmanları İdarəsi Elmi Dini Şurasının sədri, Bakı Dövlət Universitetinin ilahiyyat fakültəsinin dekanı Vasim Məmmədəliyev qeyd edib ki, Azərbaycanda dini zəmində heç vaxt qarşıdurma olmayıb. Tolerantlılıq, dözümlülük Azərbaycan xalqının qanında var.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov komitənin 15 illik fəaliyyəti barədə təqdimatla çıxış edib. Bildirib ki, bu münasibətlə fotoalbom da hazırlanıb.

Sonda Azərbaycan Prezidentinə müraciət qəbul edilib.



## *Dövlət Komitəsinin sədri:* "Radikal dini qrupları ideoloji, siyasi və psixoloji baxımdan xeyli geri sala bildik"



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı APA-ya açıqlamasında bildirib ki, Azərbaycanda dini radikal qruplara qarşı mübarizə bu gün də aparılır. Artıq bu mübarizənin nəticələri var. O bildirib ki, radikal qrupların əleyhinə aparılan təbliğat effekt verib: "Artıq qəti şəkildə demək olar ki, Azərbaycanda radikal dini qrupları ideoloji, siyasi və psixoloji baxımdan xeyli geri sala bilmişik. Onların Azərbaycanda sosial-iqtisadi bazası yox dərəcəsindədir. Eyni zamanda, gənclərimizi muzdlu əsgər kimi din adı altında xaricə aparanları da neytrallaşdırmışıq. Bu məsələdə hüquq-mühafizə orqanları çox səmərəli işlədi. Biz bundan sonra da üzərimizə düşəni yerinə yetirəcəyik. Dini radikalların Azərbaycanda hər hansı fəaliyyətinə imkan verməyəcəyik. Onların siyasi sabitliyi, ictimai asayişi pozmasına cəmiyyət və dövlət imkan verməz".

## *"Azərbaycan İslam dünyasında vahid dini təqvim sisteminin tətbiqinin tərəfdarıdır"*

"Bu yaxınlarda Türkiyədə dini bayramların İslam ölkələrində eyni gündə keçirilməsi ilə bağlı böyük bir toplantı keçirilib. Həmin tədbirdə bu məsələ ilə bağlı geniş müzakirələr aparılıb. Ümumi səsvermə nəticəsində belə razılığa gəlinib ki, İslam ölkələrində dini bayramlar və dini mərasimlər eyni gündə keçirilsin və vahid təqvim tətbiq edilsin".

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. O qeyd edib ki, hazırda bu məsələnin üzərində iş gedir: "Burada əsasən aparıcı İslam ölkələrinin atacağı addımlar önəmlidir. Tədbirdə ümumi razılığa gəlinib ki, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bu məsələ müzakirə olunsun. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də hansısa bir qətnamə qəbul edilməlidir".

Mübariz Qurbanlı onu da deyib ki, bu məsələdə Azərbaycanın mövqeyi İslam dünyasında vahid təqvim sisteminin tətbiq olunmasından ibarətdir: "Burada hər hansı ayrı-seçkilik və parçalanma olmamalıdır. Biz İslam dünyasında dini bayramlar və dini ayinlərlə bağlı vahid təqvim sisteminin tətbiqinə tərəfdarıq. Amma bu, hələlik müzakirə olunur. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də müzakirələr keçirildikcə Azərbaycan mövqeyini bildirəcək".

# Fransalı senatorlara Azərbaycandakı multikultural və tolerant mühit barədə məlumat verilib

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, BBMM-in Himayəçilik və Məşvərət şuralarının sədri, akademik Kamal Abdullayevin Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti, Milli Assambleyanın deputatı Jan-Fransua Manselin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü olub.**

Görüşdə Dövlət müşaviri Kamal Abdullayev Sovör Qandolfi-Şayt, Erik Dolij, Jan-Pyer Door, Aleksi Mansel, Lionel Tardi, Alen Vasel kimi nüfuzlu senator və deputatların təmsil olunduğu nümayəndə heyətini salamlayaraq onların Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. O, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin və BBMM-in yaranması, fəaliyyəti və həyata keçirilən layihələr barədə qonaqlara məlumat verib. Dövlət müşaviri BBMM-in hazırda Almaniya, Portuqaliya, Rusiya, Qazaxıstan, İtaliya, İsrail və Moldovada rəsmi filiallarının fəaliyyət göstərdiyini qeyd edib.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunduğunu xatırladan Dövlət müşaviri bildirib ki, multikulturalizmin təbliği dini dəyərlərin, Azərbaycanın bölgələrində yaşayan müxtəlif etnik qruplardan ibarət xalqımızın tarixinin, mədəniyyətinin təbliği olmaqla yanaşı, xalqımızın bütün dünyaya verdiyi sevgi, mərhəmət mesajıdır.

Jan-Fransua Mansel nümayəndə heyətində təmsil olunan senatorların ölkəmizə ilk dəfə səfər etdiklərini qeyd edərək heyət üzvlərinin Azərbaycanla bağlı xoşa gəlməyən təşəbbüslərin qarşısını almaq üçün Milli Assambleyada səfərbər olduqlarını və artıq onların Azərbaycana olan dostluq hisslərini sübuta yetirdiklərini vurğulayıb. Ölkəmizə səfərləri çərçivəsində "Azərbaycanı özün üçün kəşf et" proqramı hazırladıqlarını deyən Jan-Fransua Mansel respublikamızda gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün bunun önəmini diqqətə çatdırıb.



Nümayəndə heyətinin rəhbəri Azərbaycandakı mövcud multikultural duruma, xalqımızın qonaqpərvərliyinə öz gözləri ilə şahid olduqlarını qeyd edib. Rəhbərlik etdiyi qurumda Fransa cəmiyyətinin müxtəlif təbəqələrinin nüfuzlu nümayəndələrinin birləşdiyini diqqətə çatdıran Jan-Fransua Mansel Azərbaycan ilə Fransanın bir-birini daha yaxından tanıması üçün səylərini əsirgəməyəcəklərini deyib. Ölkələrimiz arasında mövcud olan yüksək səviyyəli siyasi və iqtisadi əlaqələrin bu işə öz müsbət təsirini göstərəcəyinə ümidvar olduğunu vurğulayan Jan-Fransua Mansel onlara göstərilən diqqətə və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib.

Sonra nümayəndə heyətinin üzvlərinə BBMM-in layihəsi çərçivəsində 25 dildə çap olunan, Henrix Fridrix fon Ditsin yazdığı "Homerinki ilə müqayisədə yeni aşkar edilmiş Oğuz siklopu" adlı ön sözün və "Kitabi-Dədə Qorqud" dastanından "Basatın Təpəgözü öldürdüyü boy"un daxil edildiyi kitabın fransız dilində nəşri və Mərkəzin hədiyyələri təqdim edilib.

# Mübariz Qurbanlı: "Azərbaycanda Konstitusiya qəbul edildikdə dünyəvilik əsas prinsip olaraq irəli sürülüb"

**İyunun 7-də Gənclər və İdman Nazirliyinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Multikultural dəyərlər və tolerantlıq Azərbaycanın ən qiymətli sərvətlərindəndir" mövzusunda konfrans keçirilib.**




Tədbirdə DQİDK-nın sədri Mübariz Qurbanlı, Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, Milli Məclisin gənclər və idman Komitəsinin sədri Fuad Muradov, Milli Məclisin deputatı Şahin İsmayılov, gənclər təşkilatlarının təmsilçiləri, tələbələrin və fəal gənclər iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Gənclər və İdman Nazirliyi arasında Tədbirlər Planının təsdiq edildiyini bildirən nazir müavini İntiqam Babayev bildirib ki, Bakıda və digər rayonlarda multikulturalizmlə bağlı müxtəlif seminar və "dəyirmi masa"lar təşkil edilir. Multikulturalizm dözümlülük deməkdir və bu dəyərin Azərbaycanda dərin kökləri var. Ölkəmizdə müxtəlif xalqların nümayəndələri birgə yaşayır və onların hüquqları yüksək səviyyədə qorunur. Multikultural dəyərlərə sahib olmaq xoşbəxtlikdir. Bu dəyərlər olmadıqda müxtəlif problemlər meydana çıxır.

Azərbaycanda multikulturalizmlə bağlı çoxsaylı tədbirlər keçirildiyini vurğulayan DQİDK-nın sədri Mübariz Qurbanlı qeyd edib ki, bugünkü tədbir gənclər təşkilatları üçün nəzərdə tutulub. Burada müzakirə edilən məsələlər onların gələcək fəaliyyətində tətbiq ediləcək. O bildirib ki, ölkəmizdə dövlət-din münasibətləri Azərbaycan Konstitusiyası ilə tənzimlənir. Azərbaycan müsəlman ölkəsi olaraq dünyada özünəməxsus yerə malikdir. Xalqımız İslam dinini qoruyaraq bu günədək gətirib çıxara bilib. Sovet dövründə dini məsələlərlə bağlı böyük maneələr mövcud idi. Ənənəvi İslam dəyərləri unudulmağa başlanırdı. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu kimi maneələr aradan qaldırıldı. Ümummilli Liderin İslam dininə verdiyi qiymət onun fəaliyyətində də bariz şəkildə əksini tapıb. Ulu Öndərin iftar süfrələrinə qatılması, Qafqaz Müsəlmanlar İdarəsi tərəfindən təşkil edilən tədbirlərdə iştirakı, eləcə də müqəddəs yerləri ziyarət etməsi İslam dəyərlərinə verdiyi qiymətin əsas göstəricilərindən hesab edilir.

M.Qurbanlı qeyd edib ki, Azərbaycanda Konstitusiya qəbul edildikdə dünyəvilik əsas prinsip olaraq irəli sürülüb. 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilib. Azərbaycan tarixinə nəzərə salsaq görərik ki, ölkəmizdə heç zaman dini zəmində qarşıdurma olmayıb. Xalqımız bütün xalqlara qarşı dözümlülük nümayiş etdirib. Əgər belə olmasaydı, o zaman Azərbaycanda yaşayan 70-dən çox etnik qrup mehriban şəkildə yaşaya bilməzdi. Biz bu dəyərləri bütün dünyaya nümayiş etdiririk. Azərbaycanın dünya ölkələri arasında gücü hər kəsə bəllidir. Məhz bunu gözləri götürməyən qüvvələr demokratiya pərdəsi altında ölkəmizə qarşı müxtəlif təzyiqlər etməyə, qarşıdurma yaratmağa cəhd edirlər. Lakin Azərbaycanda söz, mətbuat azadlığı mövcuddur. Bəzi radikal dini qruplaşmalar Azərbaycanda da baza yaratmağa çalışırlar. Hətta bəzən gənclərimizi fanatik dini qrupların təsiri altına salıb xarici ölkələrdəki qeyri-qanuni silahlı birləşmələrə cəlb etmə cəhdlərinin şahidi oluruq. Bu cəhdlərin qarşısını almaq üçün gənclər arasında geniş təbliğat işi aparılmalıdır.

Fuad Muradov bildirib ki, bir müddət bundan əvvəl bəzi gənclərimiz dini radikal qrupların təsir altına düşərək başqa ölkələrdəki döyüşlərə qatılırdılar. Lakin Milli Məclisdə İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklik müsbət nəticələrini verir. Artıq belə halların qarşısı demək olar ki, alınıb. Bu kimi halların baş verməməsi üçün təhsilin də böyük önəmi var. Statistika göstərir ki, belə addım atanların böyük əksəriyyəti təhsili olmayan şəxslərdir. Bu məsələyə Təhsil Nazirliyi də diqqəti artırmalıdır.

Seymur Orucov diqqətə çatdırıb ki, Azərbaycan multikultural baxımdan dünya ölkələri üçün nümunədir. Xalqımız tarixən bu dəyərlərə bağlı olub. Ulu Öndər xalqımıza Azərbaycançılıq ideologiyasını bəxş edib.

Digər çıxış edənlər də ölkəmizdə mövcud olan multikultural dəyərləri yüksək qiymətləndiriblər.

# Dövlət Komitəsinin sədri vətəndaşları qəbul edib



**Ağdaşda**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün müxtəlif tədbirlər görürlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı iyunun 1-də Ağdaş rayonundakı Heydər Əliyev Mərkəzində Mingəçevir şəhərinin, Ağdaş və Yevlax rayonlarının sakinlərini qəbul edib.

**Göygöldə**

DQİDK-nın sədri Mübariz Qurbanlı iyunun 29-da Göygöl rayonundakı Heydər Əliyev Mərkəzində Gəncə, Naftalan şəhərlərinin, eləcə də Samux, Göygöl, Goranboy və Kəlbəcər rayonlarının sakinlərini qəbul edib.

Qəbullarda vətəndaşlar tərəfindən edilən müraciətlərin əksəriyyəti dini icmaların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, bir sıra dini icmaların zəruri ədəbiyyatlarla təmin edilməsi, gənclərin dini təhsil almalarına köməklik göstərilməsi, yeni məscidlərin tikilməsi və təmiri ilə bağlı olub. Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı aidiyyati qurumlara müraciət etmələri tövsiyə olunub.





# Mübariz Qurbanlı: "Məzarlıqlar haqqında" normativ-hüquqi akt qəbul ediləcək

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, "Məzarlıqlar haqqında" xüsusi qərar layihəsinin bu yaxınlarda Nazirlər Kabineti tərəfindən normativ-hüquqi akt kimi qəbul edilməsi gözlənilir. O deyib ki, bu məsələ ilə əlaqədar Nazirlər Kabinetində işçi qrupun bir neçə toplantısı keçirilib: "Baş nazirin müavini Əli Əhmədovun rəhbərliyi ilə işçi qrupun bununla bağlı keçirdiyi toplantılar və müzakirələr nəticəsində qərar layihəsi üzərində iş yekunlaşıb".

Dövlət Komitəsinin sədri vurğulayıb ki, normativ-hüquqi akt qəbul edildikdən sonra Azərbaycanda yeni salınan məzarlıqların idarə olunması ilə bağlı yeni qaydalar tətbiq olunacaq: "Şəhid məzarları ilə bağlı məsələ isə qeyd edilən qərar layihəsində deyil, başqa qanunda öz əksini tapıb. Hazırda şəhidlərin statusunu özündə ehtiva edən qanunlarda şəhid məzarlarının fərqləndirilməsi konkret əks olunub".

## - - - Dövlət Komitəsində görüşlər - - -



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyunun 13-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi Qulam İsakzaini qəbul edib.

Komitə sədri qonağa Azərbaycanda dövlət-din münasibətləri barədə məlumat verib. O, Azərbaycanın tarixi tolerantlıq ənənələrinə malik ölkə olduğunu, burada müxtəlif millətlərin nümayəndələrinin yaşadığını və onların respublikamızda fəaliyyət göstərən məscid, kilsə və sinaqoqlarda dini ayinlərini sərbəst icra etdiklərini bildirib. Komitə sədri qeyd edib ki, biz bütövlükdə dini radikalizmin əleyhinəyik və ölkəmizdə radikal meyillərin yayılmasının qarşısının alınması üçün bütün tədbirlər görülür.

Komitə sədri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə diqqət çəkərək bildirib ki, Azərbaycan ərazilərinin iyirmi faizinin Ermənistan tərəfindən işğalı nəticəsində İslam dininə aid bütün tarixi abidələr, o cümlədən məscidlər, ziyarətgahlar dağıdılıb. Mübariz Qurbanlı BMT Təhlükəsizlik Şurasının işğal olunmuş ərazilərin boşaldılmasına dair dörd qətnamə qəbul etməsi, amma bu qətnamələrə əməl olunmaması ilə bağlı fikirlərini də qonağın diqqətinə çatdırıb.

Qulam İsakzai ölkəmizdə mühüm dəyişikliklərin şahidi olduğunu, bu inkişafın Heydər Əliyevin əsasını qoyduğu siyasət nəticəsində baş verdiyini vurğulayıb. Qonaq bildirib ki, BMT-nin Baş katibi tərəfindən dini radikalizm və ekstremizmlə mübarizə istiqamətində tədbirlərin gücləndirilməsi ilə bağlı geniş işlər görülür. Bu istiqamətdə BMT-nin baş katibi tərəfindən "Zorakı Ekstremizmin Qarşısının alınması üzrə Fəaliyyət Planı" təsdiq edilib. Dünyada cərəyan edən gərgin siyasi proseslər və müsəlman dünyasında müşahidə edilən terror dalğası fonunda Azərbaycanda mövcud olan multikultural və tolerant mühiti yüksək dəyərləndirən BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi Qulam İsakzai Dövlət Komitəsi ilə sıx əməkdaşlıq etmək niyyətində olduqlarını da diqqətə çatdırıb.

---

***İyunun 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Predanı və Stefan Şennakı qəbul edib.***

Komitə sədri Avropa Şurası ilə Azərbaycan arasında sıx əlaqələrin mövcud olduğunu, Avropa Şurasının ölkəmiz qarşısına qoyduğu öhdəliklərin yerinə yetirildiyini və Azərbaycanın bu qurumun fəal üzvlərindən biri olduğunu bildirib.

Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçisi Stefan Şennak Avropa Şurası ilə Azərbaycan arasında mövcud əməkdaşlığa toxunaraq bu əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayıb. Azərbaycanın dini məsələlərlə bağlı tolerant ölkə olduğunu deyən qonaq buna əyani şahid olduqlarını da bildirib.

Digər həmməruzəçi Sezar Florin Preda Azərbaycandakı dini vəziyyətin normal olduğunu qeyd edərək, dövlət-din münasibətləri, konfessiyalararası münasibətlərin vəziyyəti, qeyri-hökumət təşkilatları ilə əlaqələr və digər maraq doğuran məsələlər barədə fikirlərini bildirib.

Görüşdə ölkəmizdəki dini vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb və qonaqları maraqlandıran suallar cavablandırılıb.

Yekunda Komitə sədri Mübariz Qurbanlı ingilis və azərbaycan dillərində nəşr olunmuş "Azərbaycanın seçilmiş İslam abidələri" kitabını qonaqlara təqdim edib.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin katibi Delfin Freyman, Avropa Şurasının Bakı Ofisinin rəhbəri Draqana Filipoviç, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi şəxsləri iştirak ediblər.

Hər iki görüşün sonunda qonaqlar səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürlərini bildiriblər.



# Azərbaycanda həyata keçirilən multikulturalizm siyasəti ölkənin inkişafında mühüm rol oynayır

***Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə iyunun 11-də Şəki şəhərində "Multikultural dəyərlər və gənclik" mövzusunda regional konfrans keçirilib. Konfransda Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini – icra katibi Əli Əhmədov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini Mübariz Qurbanlı və digər qonaqlar, həmçinin YAP Şəki şəhər, Qəbələ, Oğuz, Qax, Zaqatala və Balakən rayon təşkilatlarının Gənclər Birliyinin üzvləri, partiya fəalları iştirak ediblər.***




YAP rəsmiləri və şəhər rəhbərliyi əvvəlcə Ümummilli Lider Heydər Əliyevin şəhər icra hakimiyyətinin binası qarşısında ucaldılan abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar.

Şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov konfransı açaraq, Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncamla 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edildiyini, bununla əlaqədar respublikamızın hər yerində silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb. Vurğulanıb ki, müxtəlif millətlərin, etnik qrupların və dinlərin mövcud olduğu Azərbaycanda dilindən, dinindən, əqidəsindən asılı olmayaraq, hamı vahid bir ailənin üzvü kimi yaşayır. Bu baxımdan xalqımızın tolerantlığı bütün dünya ölkələrinə nümunə ola bilər. Azərbaycanda həyata keçirilən multikulturalizm siyasəti ölkəmizin inkişafında, vətəndaş həmrəyliyinin daha möhkəm olmasında mühüm rol oynayır.

Konfransda çıxış edən Baş nazirin müavini, YAP-ın sədr müavini – icra katibi Əli Əhmədov toplantının çox əlamətdar bir tarixi gün ərəfəsində gerçəkləşdiyini, bir neçə gündən sonra, iyunun 15-də Azərbaycanda Milli Qurtuluş Gününün qeyd ediləcəyini diqqətə çatdırıb. Vurğulanıb ki, Azərbaycanın müasir tarixində qurtuluş məfkurəsi xüsusi məna və əhəmiyyət kəsb edir. Azərbaycanın müasir tarixinin başlanğıcı, hazırda müstəqil respublikamızda baş verən hadisələrin, ölkənin sosial-iqtisadi inkişafının başlıca səbəbi Ümummilli Lider Heydər Əliyevin möhtəşəm qayıdışı və qurtuluş məfkurəsi ilə birbaşa əlaqədardır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində respublikamızın ictimai-siyasi həyatında baş verən hadisələri xatırladan Baş nazirin müavini həmin dövrdə hakimiyyətdə olan səriştəsiz rəhbərlərin şəxsi ambisiyaları ucbatından ölkədə xaos, böhran və özbaşınalığın yarandığını, Azərbaycanın parçalanmaq təhlükəsi ilə üzləşdiyini diqqətə çatdırıb. Qeyd edib ki, belə bir məqamda xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı müstəqilliyimizin yenidən itirilmək təhlükəsinə birdəfəlik son qoydu: "Bu gün biz Azərbaycan haqqında danışarkən, eyni zamanda, respublikamızın gələcəyi ilə əlaqədar öz istək və arzularımızı formalaşdırarkən istər-istəməz qurtuluş məfkurəsinə, Ulu Öndər Heydər Əliyevin qayıdışından başlayan və Azərbaycanın dirçəlişini özündə əks etdirən məfkurəyə istinad edirik".

Əli Əhmədov deyib ki, multikulturalizm müasir dünyanın həyatını tənzimləyən çox vacib, nəzəri, eyni zamanda, siyasi, millətlərarası bir problem kimi mövcuddur. Azərbaycanın multikulturalizm sahəsindəki təcrübəsinin həm öyrənilməsi, həm də təbliğ edilməsi bütövlükdə dünyada bu problemlə əlaqədar baxışların aydınlaşmasına kömək göstərə bilər.

Sonra YAP Şəki təşkilatı Gənclər Birliyinin sədri Daşqın Mikayılov, YAP Qax rayon təşkilatı Gənclər Birliyinin sədri Elbrus Tağıyev, YAP Oğuz rayon təşkilatı Gənclər Birliyinin sədri Mehman Ramazanov, həmçinin partiyanın Zaqatala, Balakən və Qəbələ rayon təşkilatları Gənclər birliklərinin üzvləri Aytən Məmmədova, Leyla Qarayeva və Vüsalə Qəribova çıxış edərək, təmsil etdikləri rayonlarda multikulturalizm və tolerantlıq dəyərlərinin qorunması ilə bağlı görülən işlər barədə məlumat veriblər.

## Azərbaycan dünyada dini tolerantlığın mərkəzinə çevrilib



**Ağstafa şəhərindəki "Yazıçılar evi"ndə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Rayon İcra Hakimiyyəti ilə birgə "Multikulturalizm və tolerantlığın Azərbaycan nümunəsi" mövzusunda tədbir keçirib.**

Tədbiri Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev açaraq, tarixən Azərbaycanda ənənəvi dini icmaların fəaliyyət göstərdiyini və bu gün də hər bir kəsin öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirdiyini qeyd edib. Ölkəmizdə yüzlərlə məscid, kilsə və sinaqoq tikilib, yenidənqurma və əsaslı təmir işləri aparılaraq dindarların istifadəsinə verilib. Prezident İlham Əliyevin ölkəmizdəki tolerantlıq ənənələrinin daha da möhkəmləndirilməsi istiqamətində atdığı addımlar Azərbaycanı dünyada dini tolerantlığın mərkəzinə çevirib.

Sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyyad Salahlı çıxış edərək bildirib ki, ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər çıxışlarında tolerantlığın, birgəyaşayış mədəniyyətinin İslam dininin və Azərbaycan xalqının xarakterik xüsusiyyəti olduğunu dəfələrlə bildirib.

Tədbirdə çıxış edən natiqlər dövlətimizin daim bu sahəyə göstərdiyi diqqət və qayğıdan danışaraq yaradılan şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

## Dövlət Komitəsində italiyalı qonaqlarla görüş keçirilib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində iyunun 6-da Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və Mədəniyyət və Turizm Nazirliyinin benefisiar olduğu 2016-2018-ci illərdə "Mədəniyyət sektorunun siyasəti və idarə olunması sisteminin modernləşdirilməsində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinə dəstək" adlı tvinninq layihəsinin ekspertləri Mikela Diodato və Eliza Petruçi, layihənin yerli koordinatoru Alessandro Bianç̧i ilə görüş keçirilib.

Mədəniyyət sektorunun idarəedilməsində və mədəni irsin qorunmasında ən qabaqcıl təcrübəyə yiyələnmək üçün Azərbaycana dəstək göstərilməsi məqsədilə həyata keçirilən layihənin ekspertləri layihə haqqında Dövlət Komitəsinin nümayəndələrinə geniş məlumat veriblər.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədli, Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, İctimaiyyətlə əlaqələr şöbəsinin aparıcı məsləhətçisi Nərminə Məmmədovanın iştirak etdiyi görüşdə qonaqlara Dövlət Komitəsinin müvafiq şöbələrinin fəaliyyəti və funksiyaları, həmçinin Komitə tərəfindən həyata keçirilən tədbirlər barədə dolğun informasiya verilib.

Layihənin yerli koordinatoru Alessandro Bianç̧i ölkəmizdəki tolerant mühiti yüksək qiymətləndirib və bu modelin dünyada yayılmasına ehtiyac olduğunu bildirib.



# "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda regional konfranslar keçirilib



## Ağdaşda

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Ağdaş Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə iyunun 1-də baş tutan regional konfransın iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Rayon rəhbərliyi, hüquq mühafizə orqanları əməkdaşları, dini icma rəhbərləri, din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclərin iştirak etdiyi tədbirdə dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filmi nümayiş olunub.

Konfransda çıxış edən Ağdaş Rayon İcra Hakimiyyəti başçısının müavini İsmayıl İsmayılzadə ölkəmizdə azsaylı xalqların və müxtəlif dini konfessiyaların uzun əsrlərdən bəri sərbəst və qarşılıqlı anlaşma şəraitində yaşadıqlarını bildirib. Qeyd edilib ki, ölkəmizdə hər zaman başqa xalqların dilinə, dininə, mədəniyyətinə daim hörmətlə yanaşılıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı sürətlənib. Bu gün ölkəmizdə dinlərarası münasibətlər yüksək səviyyədədir. Hər kəsin etiqad azadlığı təmin olunur. Bununla yanaşı, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan, o cümlədən ölkə əhalisinin əksəriyyətinin etiqad etdiyi İslam dini və mədəniyyətinin təbliği prioritet məsələlərdəndir.

Qeyd olunub ki, Prezident İlham Əliyev mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır. Dövlətin bu sahədə yürütdüyü siyasət nəticəsində Azərbaycan cəmiyyətində dinlərarası münasibətdə dözümlülük özünü bariz şəkildə göstərir. Həyata keçirilən uğurlu daxili və xarici siyasət sayəsində multikulturalizm və tolerantlıq xalqımızın həyat tərzinə çevrilib.

Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunduğunu xatırladan Mübariz Qurbanlı bildirib ki, bu, Azərbaycan xalqının digər millətlərlə dostluq, qardaşlıq şəraitində yaşadığını bütün dünyaya bir daha nümayiş etdirir. Diqqətə çatdırılıb ki, çoxmillətli, çoxkonfessiyalı respublika kimi ölkəmizdə bütün xalqların, dinlərin, etnik qrupların nümayəndələri eyni hüquq və azadlığa malikdir.

Konfransda Milli Məclisin deputatı Elman Nəsirov, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Əli Məmmədov çıxış edərək, ölkəmizdəki tolerantlıq mühitinin əsasında duran amillərdən danışıblar.

## Goranboyda

İyunun 28-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Goranboy Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən konfransda Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli şəxsləri, həmçinin rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, sonra mərkəzdə Ulu Öndərin həyat və siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərini əks etdirən muzeylə tanışlıq olub.

Konfrans dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filminin nümayişi ilə başlayıb.

Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev çıxış edərək bildirib ki, respublikamızda, o cümlədən Goranboyda tarixən müxtəlif millətlərin nümayəndələri birgə yaşayıb, bir-birinin dilinə, dininə, adət-ənənələrinə hörmətlə yanaşıblar. Hazırda rayonda türk, rus, kürd və digər millətlərin nümayəndələri yaşayır. Rayonun ərazisində yaşayan azsaylı xalqların nümayəndələrinin problemlərinə həssaslıqla yanaşılır və qaldırılan məsələlər tez bir zamanda həllini tapır.

Konfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycanda dövlət-din münasibətlərinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Bu gün isə həmin münasibətlər bütün hüquqi dövlətlərdə olduğu kimi, Azərbaycanda da qanunlarla tənzimlənir. Qeyd olunub ki, ölkə əhalisinin böyük əksəriyyəti müsəlman dininə etiqad etsə də, Azərbaycan hüquqi, dünyəvi dövlətdir. Bununla belə Azərbaycan müsəlman dünyasının bir hissəsi olduğu üçün İslam aləmində baş verən bir sıra xoşagəlməz ictimai, siyasi-iqtisadi proseslər ölkəmizdə də müəyyən narahatlıqla qarşılanır. Ona görə də müəyyən dövlət qurumları ilə yanaşı, ictimaiyyət də bu cür proseslərin - terrorun, dini radikalizmin, zərərli dini cərəyanların ölkədə yayılmasının qarşısının alınmasında vətəndaş fəallığı göstərməlidirlər.

Konfransda adət-ənənələrin icrasında yol verilən bəzi nöqsanlar haqqında da danışılıb, İslam dinində əksini tapmayan, lakin sonradan bəzi şəxslər tərəfindən uydurulan ayin və mərasimlərin qəbuledilməz olduğu diqqətə çatdırılıb.



## Göygöldə

İyunun 29-da Göygöl Rayon İcra Hakimiyyətinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən konfransda Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov, Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Gəncə, Naftalan şəhərlərində, eləcə də Samux, Göygöl, Goranboy və Kəlbəcər rayonlarında fəaliyyət göstərən müxtəlif etnik və dini icmaların təmsilçiləri, din xadimləri, ilahiyyatçılar, hüquq mühafizə orqanlarının əməkdaşları, həmçinin rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.




Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu Öndərin Göygöl rayonuna tarixi səfərlərini əks etdirən fotolara baxıblar.

Konfrans dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filminin nümayişi ilə başlayıb.

Tədbirdə Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov çıxış edərək bildirib ki, vaxtilə rayonda almanlar tərəfindən salınan küçələr, ictimai və yaşayış binaları, kilsə, hətta onların qəbiristanları belə qorunur. Azərbaycanın hər yerində olduğu kimi, Göygöl rayonunda da bir sıra dini və etnik icmaların nümayəndələri təmsil olunurlar. Rayonda dini və etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin fəaliyyəti Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

Konfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycanda dövlət-din münasibətlərinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Bu gün isə həmin münasibətlər bütün hüquqi dövlətlərdə olduğu kimi, Azərbaycanda da qanunlarla tənzimlənir. Qeyd olunub ki, ölkə əhalisinin böyük əksəriyyəti İslam dininə etiqad etsə də, Azərbaycan hüquqi, dünyəvi, unitar dövlətdir. Ölkədə ali hüquqi qüvvəyə malik Azərbaycan Respublikasının Konstitusiyası fəaliyyət göstərir və dünyanın ən demokratik konstitusiyalarından hesab olunur. Çünki burada beynəlxalq hüququn hamılıqla tanındığı norma və prinsiplər əksini tapmaqla yanaşı, bütün növ fundamental insan, vətəndaş hüquq və azadlıqları təsbit edilib. Bu gün Azərbaycanda bütün dinlərin qanunvericiliyə uyğun azad və sərbəst fəaliyyətinə icazə verilir.

Diqqətə çatdırılıb ki, ölkədə yaradılan ictimai-siyasi sabitlik, əldə olunan iqtisadi-sosial tərəqqi bir sıra xarici qüvvələri narahat edir. Respublikanın azad, suveren inkişafına, milli təhlükəsizlik sisteminə təhdid kimi qiymətləndirilən xoşagəlməz halların - terror, dini radikalizm, qeyri-ənənəvi dinlərin, zərərli dini cərəyanların ölkəyə ixrac olunmasına cəhd göstərilir. Bu cür hallara qarşı hər kəs ayıq-sayıq olmalıdır.

Konfransda mövcud təhlükələrin ölkəyə yol tapmaması üçün valideynlərin ailədə, ziyalıların cəmiyyətdə təbliğat aparmalarının zəruriliyi vurğulanıb. Gənc nəslin dini baxımdan daha da bilikli olması üçün məktəblərdə, müxtəlif təhsil müəssisələrində seminarların, təlimlərin təşkil olunmasının əhəmiyyəti qeyd edilib.

Konfransların sonunda məruzələr ətrafında müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

# "Dünyəvi dövlətdə din: Azərbaycan modeli" mövzusunda seminarlar keçirilib




***Qazaxda***

İyunun 7-də baş tutan tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini Səyyad Salahlı, Rayon İcra Hakimiyyəti başçısının müavini Gulaya Həsənova, Rayon İcra Hakimiyyətinin və Dövlət Komitəsinin məsul işçiləri, o cümlədən din xadimləri, ağsaqqallar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Rayon İcra Hakimiyyəti başçısının müavini Gulaya Həsənova rayonda dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Seminarda DQİDK sədrinin birinci müavini Səyyad Salahlı geniş məruzə ilə çıxış edərək bildirib ki, respublikamızda insan hüquq və azadlıqlarının bərqərar olmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına və tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə böyük önəm verilir. Ümummilli Lider Heydər Əliyevin ardıcıl, məqsədyönlü fəaliyyəti sayəsində ölkəmizdə insan hüquqlarının qorunmasına dair qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb, dövlət-din münasibətlərinin tənzimlənməsi prinsipləri təsbit olunub, dini etiqad azadlığı ilə bağlı hüquqi-normativ aktların icrasının təmin olunmasına nəzarət edilməsi, konfessiyalar arasında dözümlülük ənənəsinin möhkəmləndirilməsi, milli-mənəvi abidələrimizin bərpası və qorunmasında mühüm tədbirlər həyat keçirilib. Birmənalı demək olar ki, Azərbaycanda qəbul edilən qanunlar və normativ aktlar



bütövlükdə dini etiqad azadlığını təmin edir və yarana biləcək problemləri həll etmək, dövlətlə dini qurumlar arasındakı münasibətləri qanun çərçivəsində tənzimləmək üçün hüquqi əsas yaradır.

Səyyad Salahlı respublikamızda dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, dini maarifləndirmə işinin təşkili və həyata keçirilməsi, həmçinin dini icmaların cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması və sosial problemlərinin həlli prosesinə cəlb olunması sahəsində dövlətin həyata keçirdiyi tədbirləri din xadimlərinin nəzərinə çatdırıb.

Çıxış edən natiqlər də bu sahədə görülən işlərdən danışaraq dinimizin yad ünsürlərdən qoruması yollarını müzakirə ediblər.

***Gədəbəydə***

İyunun 23-də keçirilən tədbirdə çıxış edən Gədəbəy Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Qüdrət Paşayev tədbirin əhəmiyyətindən danışıb. DQİDK sədrinin birinci müavini Səyyad Salahlı isə öz çıxışında ölkəmizdə mövcud olan vicdan azadlığı məsələsinə toxunub. S.Salahlı bildirib ki, bu gün ölkəmizdə vicdan azadlığı təmin edilib və bu, 25 ildir müstəqil olan bir ölkə üçün böyük bir nailiyyətdir. Dünyanın dinlər və məzhəblərarası münaqişələrlə çalxalandığı belə bir dövrdə Azərbaycan özünün multikulturalizm modelini dünyaya nümunə kimi təqdim edir. Dövlət Komitəsi sədrinin birinci müavini Azərbaycanda multikultural həyat tərzinin real nümunələrindən bəhs edib və multikulturalizmin radikalizmin qarşısının alınmasında mühüm vasitə olduğunu bildirib.




***Şəmkirdə***

İyunun 24-də Şəmkir rayonu Heydər Əliyev Mərkəzində keçirilən seminar-treninqdə DQİDK-nın Tovuz və Gəncə bölgələri üzrə şöbə müdirləri, rayon ictimaiyyətinin nümayəndələri, ziyalılar, din xadimləri və gənclər iştirak ediblər.

Seminarı giriş sözü ilə açan Şəmkir rayon İcra Hakimiyyəti başçısının müavini Fəxrəddin Vəliyev qeyd edib ki, Azərbaycan xalqı öz milli-mənəvi, dini dəyərlərini əsrlər



boyu qoruyub saxlayıb. Xüsusilə dövlət müstəqilliyinin bərpasından sonra milli-mənəvi, o cümlədən dini dəyərlərimizə qayıdış prosesi sürətlənib: "Bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün dünyada tolerant ölkə kimi tanınır. Dinlərarası münasibətlərin tənzimlənməsi, eyni zamanda dini dözümlülüyün yüksək səviyyədə mövcudluğu dövlət siyasətinin prioritet istiqamətlərindən biridir".

Mövzu ilə əlaqədar çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Azərbaycan hüquqi dövlətdir və İslam dini bizim milli ideologiyamızın tərkib hissələrindən biridir: "Azərbaycan dövlətinin dinə qayğısı hər kəsə məlumdur. Azərbaycanda İslam dəyərlərinin inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Sovetlər zamanında ölkəmizdə 18 məscid vardısa, bu gün artıq onların sayı iki mindən çoxdur. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu mükəmməl siyasi xətt cənab İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir".

Daha sonra tədbirdə çıxış edən natiqlər dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulmasından, dini tolerantlıq mühitindən, dövlətimizin daim bu sahəyə göstərdiyi diqqət və qayğıdan danışıblar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Fitnə" sənədli filminin də nümayiş olunduğu hər üç tədbirdə iştirakçıların sualları cavablandırılıb, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# Şəki İslam mədrəsəsində hafizlərin buraxılış mərasimi keçirilib



Qafqaz Müsəlmanları İdarəsi Şəki İslam mədrəsəsində "IX ənənəvi hafizlik mərasimi" - hafizlərin buraxılış mərasimi keçirilib. Mərasimdə 2015 və 2016-cı illərdə məzun olan 30 hafiz iştirak edib. Mərasimdə Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Hacı Salman Musayev, QMİ-nin sədr müavini Qəmərxanım Cavadlı, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Gəncliyə Yardım Fondunun Himayəçilər Şurasının sədri Əhməd Tecim, Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini Firon Əliyev və Şəki şəhər təhsil, gənclər və idman idarələrinin rəhbərləri və digər vəzifəli şəxslər, rayon ictimaiyyətinin nümayəndələri, dindarlar və ətraf rayonlardan dəvət olunmuş qonaqlar iştirak ediblər. Qurani-Kərimin qiraəti ilə başlanan tədbirdə Şəki İslam Mədrəsəsinin keçdiyi şərəfli yol haqqında danışılıb. Bildirib ki, 1993-cü ildə fəaliyyətə başlayan mədrəsədə bu günədək 222 Quran hafizi məzun olub. Qeyd edilib ki, mərasim nəinki bölgənin, eləcə də ölkəmizin ictimai və dini həyatında əlamətdar hadisədir. Qürur hissi ilə vurğulanıb ki, ölkəmizdə dövlət-din münasibətlərinin günü-gündən daha yeni müstəvidə inkişaf etməsi, dövlətin dindarlara və dini sahəyə göstərdiyi diqqət və qayğının bariz göstəricisidir ki, bir sıra nailiyyətlərlə yanaşı, Qurani-Kərimin canlı daşıyıcıları olan hafizlərin sayı da ilbəil artır.

Sonda məzun olan hafizlər Qafqaz Müsəlmanları İdarəsinin diplom və xatirə hədiyyələri ilə təltif olunublar.

# Masallıda “Dini ekstremizmə qarşı mübarizə” mövzusunda regional seminar-müşavirə keçirilib



**İyunun 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Masallı Rayon Mədəniyyət Mərkəzində “Dini ekstremizmə qarşı mübarizə” mövzusunda seminar-müşavirə keçirilib.**

Tədbirdə Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar və Cəbrayıl rayon prokurorları, Daxili İşlər və Ədliyyə nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti və DQİDK-nın yerli strukturlarının rəhbərləri, ziyalılar, dindarlar iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad edib, mövzu ilə bağlı lentə alınmış “Fitnə” sənədli filminə baxıblar.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov çıxış edərək, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən daxili və xarici siyasət nəticəsində ölkəmizdə hökm sürən ictimai-siyasi sabitlikdən və bütün dünyaya örnək ola biləcək tolerantlıq mühitindən danışıb.

Seminar-müşavirədə çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov “Dini ekstremizmə qarşı mübarizə haqqında” Qanunun tələblərindən irəli gələn məsələlər, dini radikalizm və onun fəsadlarından söhbət açıb. S.Heydərov diqqəti din pərdəsi altında aparılan münaqişələrə cəlb edərək bildirib ki, dünyada aparıcı güclər din amilindən geosiyasi maraqları üçün istifadə edir. İslamı siyasiləşdirərək daxildə qarışıqlıq yaratmaqla, onun gözdən salınmasına yönələn siyasət həyata keçirilir. Belə bir şəraitdə dünyada sülhün təminatında dini təhlükəsizlik problemi getdikcə artmaqdadır. O qeyd edib ki, dünyanın belə bir böhranlı dövründə Azərbaycanda qlobal təhlükəsizlik məsələləri müzakirə olunur, tolerantlıq təbliğ edilir. Azərbaycan bu gün dünyada təkcə enerji təhlükəsizliyində deyil, eyni zamanda, qlobal təhlükəsizlik məsələlərində də töhfə verən ölkəyə çevrilib.



Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini Hikmət Eyvazov çıxışında qeyd edib ki, artıq dünya birliyi Azərbaycanı tolerantlıq nümunəsi kimi görür. H.Eyvazov diqqətə çatdırıb ki, bəzi qrupların din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına yönəlmiş pozuculuq fəaliyyətləri müşahidə olunur. Bu cür əməllər törətməyə cəhd edənlərə qarşı dövlət qurumları tərəfindən tədbirlər həyata keçirilir.

Baş Prokurorluğun idarə rəisinin müavini Novruz Hacıyev çıxışında ölkəmizdəki multikultural və tolerant mühitdən, dini radikalizm və onun fəsadlarından, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı pozuculuq fəaliyyətlərinin qarşısının alınmasına yönələn tədbirlərdən danışıb.

Müşavirədə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin cənub bölgəsi üzrə qazısı Mirqiyas Təhməzov, “Tərəqqi” medallı Əməkdar Müəllim, şəhər 1 nömrəli tam orta məktəbin direktoru Mirqabil Hüseynov, rayon Ağsaqqallar Şurasının sədr müavini Ələşrəf Niftiyev və başqaları qeyd ediblər ki, gənclərimizi dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorumaq vəzifəsi bütün cəmiyyətin üzərinə düşür.

Çıxışlarda qeyd olunub ki, dini radikalizmlə mübarizədə maarifçilik işinin təşkilinə xüsusi önəm verilməlidir. Bu mübarizədə hər bir Azərbaycan vətəndaşı, xüsusilə ziyalılar və dindarlar fəallıq göstərməlidirlər.

Seminar-müşavirənin sonunda mövzu ilə bağlı təkliflər verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Dini radikalizmlə mübarizə: maarifləndirmə tədbirləri davam etdirilir



Dini radikalizm və ekstremizmlə mübarizə hər bir vətəndaşın borcu olmaqla yanaşı, dövlətimiz bəşəriyyətin bu bəlası ilə mübarizə məqsədilə həm ideoloji, həm də hüquqi-inzibati müstəvidə zəruri addımlar atır, genişmiqyaslı maarifləndirmə tədbirləri həyata keçirir. Çünki dini radikal fikirli insanlar cəmiyyətdə mövcud olan birgəyaşayış ənənəsinə zərbə vurmaqla yanaşı, dini məlumatların öz məqsədləri üçün təhrifinə də yol verirlər. Ancaq hazırda ölkəmizdə dini maarifləndirmə işi ən yüksək səviyyədə aparılır və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) də mütəmadi olaraq bu məqsədlə ayrı-ayrı dövlət strukturları, qeyri-hökumət təşkilatları, rayon və şəhər icra hakimiyyətləri, hüquq-mühafizə orqanları ilə birgə bir sıra tədbirlər təşkil edir. Bu qəbildən olan tədbirlər iyunun 3-də Şamaxı şəhəri 2 saylı tam orta məktəbində “Gənclərin radikal təsirlərdən qorunması” və Binəqədi rayonunda “Dini radikallığa və ekstremizmə qarşı effektiv mübarizə yolları” mövzularında, iyunun 8-də 16 saylı cəzaçəkmə müəssisəsində “Dini radikalizm və onun fəsadları” mövzusunda, 9-da Xətai rayonunda yerləşən 5 saylı Bakı Peşə Liseyində “Dini radikallığa və ekstremizmə qarşı mübarizə yolları” və Qobustanda “Dini radikalizm və onun fəsadları” mövzularında, 10-da Quba şəhəri “Ərdəbil” məscidində “Dini radikalizmlə mübarizədə mötədil dindarların rolu” mövzusunda, 16-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialında “Radikal dini cərəyanlar və onlara qarşı mübarizə” mövzusunda, 17-də Sabirabad rayonu Yeni Azərbaycan Partiyasının inzibati binasında “Dini radikalizm və ekstremizmə qarşı effektiv mübarizə yolları” mövzusunda, 23-də Sabunçuda “Dini radikalizm və onun təzahür formaları” və Qubada “Radikalizmlə mübarizədə mötədil dindarların rolu” mövzularında baş tutub. Dövlət Komitəsi əməkdaşlarının, rayon və şəhər icra hakimiyyətlərinin, hüquq-mühafizə orqanlarının, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələrinin, ziyalıların, din xadimlərinin, ağsaqqal və gənclərin,



dindarların, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirlərdə mövzu ilə əlaqədar çıxışlar və ekspert rəyləri dinlənilib. Çıxışlarda dini radikalizm və ekstremizmin təzahür formaları və onlara qarşı mübarizə metodologiyası barədə məlumat verilib, Azərbaycandakı tolerant və multikultural dəyərlərin qorunması və təbliği ilə bağlı fikirlər səsləndirilib. Həmçinin radikal dini cərəyanların, ekstremizmin təbliğatında gəncləri özünə cəlb edən cəhətlər və buna qarşı profilaktik tədbirlər - radikal dini qrupların təbliğatına qarşı dini icmalarla dövlət orqanları və vətəndaş cəmiyyətinin səylərinin birləşdirilməsi, radikallığa qarşı mübarizədə düzgün maarifləndirmə işinin təşkili məsələləri müzakirə olunub. Bildirilib ki, bəzi qüvvələr din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı yönəldilmiş pozuculuq fəaliyyəti həyata keçirsələr də, dövlətimiz bu kimi neqativ halların qarşısını almağa qadirdir. Ancaq hər bir vətəndaş da öz növbəsində dini radikalizm və ekstremizmlə mübarizə aparmağa borcludur. Buna görə də hər kəs düzgün dini biliklərə yiyələnməlidir. Xüsusilə də gənclərin dini sahədə intellektual səviyyəsi və mövcud situasiyanı düzgün qiymətləndirmək qabiliyyətləri yetərincə yüksək olmadığından onlar radikal meyilli qüvvələrin qurbanına çevrilə bilirlər.

Tədbirlərdə, həmçinin DQİDK-nın sifarişi əsasında hazırlanmış və dini radikalizmin fəsadlarından bəhs edən “Fitnə” sənədli filmi də nümayiş etdirilib.

# Dövlət Komitəsinin sədr müavini Astarada dindarlarla görüşüb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Astara rayonu Pensər kəndi "Hacı Teymur Cümə" və "Cümə" məscidlərində dini icma sədrləri və dindarlarla görüşüb. Dövlət Komitəsinin sədr müavini Pensər kəndindəki tolerantlığın fərqli məzhəblərin nümayəndələri arasındakı vəhdətə nümunə olduğunu bildirib. S.Heydərov qeyd edib ki, respublikamızda mövcud olan bütün dinlərin nümayəndələrinə qarşı dözümlülük və tolerantlıq nümayiş olunur. Azərbaycan bu aspektdən dünyanın bir çox dövlət və cəmiyyətlərinə örnək ola biləcək bir ölkədir. Görüş zamanı bildirilib ki, xalqımızın öz tarixi köklərinə bağlılığı, milli-mənəvi dəyərlərinə sadiq olması Azərbaycan Respublikasının mövcud xətt üzrə dövlət siyasəti ilə tam bir vəhdət təşkil etməkdədir.

Sonda DQİDK-nın sədr müavini Səyavuş Heydərov hər iki məscidə kitablar hədiyyə edib.






# "Gənclər və milli-mənəvi dəyərlərimiz: keçmişdən bu günə" mövzusunda zona toplantısı keçirilib

İyunun 16-da Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşəbbüsü ilə "Gənclər və milli-mənəvi dəyərlərimiz: keçmişdən bu günə" mövzusunda zona toplantısı keçirilib.

Toplantıda Azərbaycan Respublikasının Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin gənclər təşkilatları ilə iş sektorunun müdiri Vüsal Quliyev, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun sədri Fərhad Hacıyev, Şəmkir Rayon İcra Hakimiyyəti Aparatının məsul işçiləri, qərb regionu üzrə gənclər və idman idarələrinin əməkdaşları, QHT rəhbərləri və gənclər iştirak ediblər. Dini radikalizmlə mübarizə, "Multukulturalizm ili"ndə region gənclərinin bu mübarizədə fəallıq nümayiş etdirməsi mühüm vəzifə kimi önə çəkilib. Dini sabitliyin qorunması, regiona yol açmaq istəyən radikalçıların qarşısını almaq məqsədilə keçirilən tədbirdə qərb regionunda dini sabitliyin hökm sürdüyü, gənclərin radikal vərdişlərdən uzaq olması müsbət hal kimi dəyərləndirilib.  Görüşdə "Gənclər və milli-mənəvi dəyərlərimiz" mövzusunda çıxışlar edilib, diskusiyalar aparılıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin hazırladığı "Fitnə" filminin nümayişi və gəncləri maraqlandıran sualların cavablandırılması ilə tədbirə yekun vurulub.

# Paytaxt və regionlarda "Fitnə" filminin təqdimatı keçirilib



Bu gün qlobal problemə çevrilən, bütün dünyanı təhdid altında qoyan dini radikalizm və ekstremizmlə mübarizə aparmaq məqsədilə dövlətimiz tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) də öz növbəsində dini radikalizmlə mübarizə çərçivəsində respublikanın bütün bölgələrində regional konfranslar təşkil edir, çoxsaylı seminarlar, görüşlər keçirir, həmçinin müxtəlif kitab və digər çap materialları nəşr edərək yayır. Lakin aparılan təhlillərin nəticəsi təsdiqləyib ki, dini radikalizmin fəsadlarını cəmiyyətin bütün təbəqələrinə çatdırmaq və insanları məlumatlandırmaqla onları bu mübarizəyə cəlb etmək üçün peşəkar səviyyədə sənədli filmin çəkilməsinə ciddi ehtiyac var. Bu səbəbdən də Dövlət Komitəsi dini radikalizmlə mübarizə çərçivəsində radikalizmlə mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəflərinin işıqlandırıldığı "Fitnə" adlı sənədli film hazırlayıb. Filmdə dini radikalizmin qurbanı olmuş insanların, eləcə də cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin timsalında bu problemin cəmiyyət və dövlətimiz üçün nə qədər təhlükəli olduğu dolğun şəkildə açıqlanır. Eyni zamanda, Azərbaycanda dinlər, məzhəblər arasında tarixən mövcud olmuş birlik və bərabərlik, xalqımızın tolerantlıq keyfiyyətləri, dövlətin bu sahədə həyata keçirdiyi siyasətin mahiyyəti qısa, lakin aydın şəkildə işıqlandırılır.



Dövlət Komitəsi filmi hazırlamaqla kifayətlənməyərək rayon icra hakimiyyətləri ilə birgə onun respublikamızın müxtəlif bölgələrində ictimaiyyətin diqqətinə çatdırılması işini də həyata keçirir. Bu qəbildən olan tədbirlər Zaqatala, Şamaxı, İsmayıllı, Qubadlı, Horadiz, Laçın, Göyçay, Balakən, Tərtər, Neftçala, Xaçmaz, Lerik, Ağcabədi, Ağdam və Abşeronda, o cümlədən paytaxtın Nizami və Qaradağ rayonlarında, universitet, kollec və məktəblərdə baş tutub. DQİDK rəhbərliyinin və məsul əməkdaşlarının, rayon və şəhər icra hakimiyyəti nümayəndələrinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, təhsil işçiləri, din xadimləri, yuxarı sinif şagirdləri, gənclər, dindarlar və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə filmin müasir cəmiyyətimiz üçün təbliğat vasitəsi kimi zəruri olduğu bildirilib, xüsusilə gənclərə dəyərli tövsiyələr verilərək onların ekstremist təmayüllü dini cərəyanlara qoşulmaması üçün mili-mənəvi dəyərlərə, dövlətinə bağlı olmasının önəmi vurğulanıb.



Həmçinin gənclərimizin radikal dini cərəyanların təsiri altına düşməməsi və bu istiqamətdə məlumatlandırılmasının təmin edilməsi üçün bu tipli maarifləndirici filmlərin çəkilməsinin və istiqamətləndirici tədbirlərin daha çox keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Film tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

# QISA-QISA



İyunun 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) İmişli bölgəsi üzrə şöbəsinin və Saatlı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Saatlı rayonu Heydər Əliyev Mərkəzində "Multikulturalizm və dini dözümlülük" mövzusunda tədbir keçirilib. Tədbirdə Saatlı Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Lütvəli Şıxalıyev, şöbənin əməkdaşı Elşən Əzizov, DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin məsləhətçisi Elvin İbrahimov, Saatlı Rayon Gənclər və İdman idarəsinin rəisi Elçin Qiyasov, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

Natiqlər Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi və radikal qruplaşmaların fəaliyyətinin qarşısının alınması istiqamətində görülən mühüm tədbirlərdən danışıblar. Bildirilib ki, ölkəmizdə mövcud olan zəngin multikultural və dini tolerantlıq ənənələrinin qorunub daha da inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindəndir. Prezident İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" elan etməsi qeyd olunanlara bariz nümunədir.

* * *

İyunun 3-də DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi Qubadlı rayonu Mədəniyyət və Turizm şöbəsi ilə birgə Sumqayıt şəhərində "Multikulturalizm – bəşəri sülhün qarantı" mövzusunda seminar keçirib.

Tədbirdə multikulturalizm və tolerantlığın Azərbaycan xalqının ictimai-fəlsəfi düşüncə tarixindəki yeri və rolundan danışılıb.

* * *

İyunun 6-da DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin və Qubadlı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Qubadlı rayonu Mərdanlı kənd tam orta məktəbində "Multikulturalizm radikalizmə qarşı mübarizədə dövlət siyasəti kimi" mövzusunda seminar keçirilib.

Qubadlı Rayon İcra Hakimiyyəti Aparatının İctimai-siyasi və humanitar məsələlər üzrə şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Elşən Qəhrəmanov, Mərdanlı kənd tam orta məktəbin direktoru Könül Kərimova, DQDİK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin aparıcı məsləhətçisi Yalçın Abdullayev, orta məktəb şagirdləri və müəllimlərin iştirak etdiyi tədbirdə bildirilib ki, ölkəmizdə birgəyaşayışın və mehriban münasibətlərin tarix boyu möhkəmlənməsi və milli-mənəvi dəyərə çevrilməsi bu gün də davam etməkdədir.

Dini radikalizm və onun fəsadları ilə əlaqədar məsələlərə toxunulan tədbirdə qeyd edilib ki, bu cür zərərli qrupların əsas məqsədi ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq, dövlətimizin hüquqi-demokratik əsaslarını sarsıtmaqdır. Vurğulanıb ki, gənclər onları dinə dəvət edən şəxslərə qarşı ehtiyatlı olmalı, əsasən təhsilə üstünlük verməlidirlər.

* * *

İyunun 6-da DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayon İcra Hakimiyyətində Ramazan ayının başlanması münasibətilə dindarlarla görüş keçirilib. Görüşdə Zərdab Rayon İcra Hakimiyyətinin başçısı cənab Lütvəli Babayev, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev və şöbənin əməkdaşları, RİH başçısının müavinləri və əməkdaşları, dini icmaların sədrləri, din xadimləri, ziyalılar, yerli icra və bələdiyyə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri, eləcə də fəal ictimaiyyət nümayəndələri iştirak ediblər. Ölkəmizdə mövcud olan dövlət-din münasibətlərindən söhbət açılan tədbirdə bu istiqamətdə Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri qeyd olunub və vurğulanıb ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir.

Görüşdə çıxış edən dindarlar da ölkəmizdə bu sahədə görülən işlərə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

* * *

İyunun 6-da DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Ramazan ayının başlanması münasibətilə dindarlarla görüş keçirilib. Görüşdə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirov, QMİ-nin bölgə qazısı Mirqiyas Təhməzov, RİH başçısının müavinləri və əməkdaşları, dini icmaların sədrləri, din xadimləri, ziyalılar, yerli icra və bələdiyyə orqanları, hüquq-mühafizə orqanlarının rəhbərləri, eləcə də fəal ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə ölkəmizdə milli-mənəvi dəyərlərin təbliği və düzgün dini maarifləndirmə istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətindən bəhs olunub. Prezident İlham Əliyevin dünyada Azərbaycandakı multikulturalizm ənənələrinin qorunub saxlanılması və geniş təbliği məqsədilə 2016-cı ili "Multikulturalizm ili" elan etməsi və son dövrlər rayonda bu sahədə görülən işlərdən danışılıb.




* * *

İyunun 7-də DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə şəhər "Cümə" məscidində Ramazan ayının başlanması münasibətilə dindarlarla görüş keçirilib. Görüşdə İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov, DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin əməkdaşı Tural İbrahimov, RİH başçısının müavinləri və əməkdaşları, QMİ-nin İsmayıllı rayonu üzrə səlahiyyətli nümayəndəsi Şəhzadə Bilalov, şəhər bələdiyyəsinin sədri Pərviz Ağayev, dini icmaların sədrləri, din xadimləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə dövlət-din münasibətlərindən və bu istiqamətdə görülən işlərdən bəhs olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən bölgələrdə tədbirlər keçirilir.

Ramazan ayında iftar süfrələrində maarifləndirmə işinin aparılması məqsədilə Dövlət Komitəsinin dəstəyi ilə paytaxtda və bölgələrdə iftar süfrələri təşkil edilir. Bu məqsədlə iyunun 7-də Saatlı rayon Varxankənd "Cümə" məscidi dini icmasına ayrılmış vəsait hesabına kənd sakinləri üçün iftar süfrəsi təşkil olunub. İftar süfrəsində DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin məsləhətçisi Elvin İbrahimov, Saatlı rayon Varxankənd "Cümə" məscidi dini icmasının sədri Yadigar Aslanov, dini icma üzvləri, kənd ağsaqqalları, ziyalılar və gənclər iştirak ediblər.

Bu qəbildən digər tədbir isə iyunun 22-də Yardımlı rayonu Yardımlı şəhər məscidi dini icmasının "Multikultural cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində "Azərbaycan xalqının tolerantlıq ənənələrinin tarixi" mövzusunda rayon Tarix-diyarşünaslıq muzeyində baş tutub.



Muzey əməkdaşlarının, dini icma üzvlərinin və gənclərin iştirak etdiyi tədbirdə Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulmasından, ölkəmizdə tarixən mövcud olmuş multikultural və tolerant ənənələrdən danışılıb.

Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Fitnə" sənədli filminin nümayişindən sonra tədbir iftar süfrəsi arxasında səmimi söhbətlə davam edib.

* * *

İyunun 8-də DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin və Şamaxı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə M.Hadi adına şəhər 9 saylı tam orta məktəbində "Vətən sevgisi və vətənpərvərliyin tərənnümü" mövzusunda tədbir keçirilib. Tədbirdə DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, şöbənin baş məsləhətçisi Cavid Əhmədov, Şamaxı Rayon İcra Hakimiyyəti Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı İsmayıl Manafov, məktəbin direktoru Xasay İsayev, Psixoloqların dayaq məntəqəsinin sədri Elnarə Yaralıyeva, müəllimlər və orta məktəb şagirdləri iştirak ediblər. Natiqlər öz çıxışlarında vətənpərvərliyin mahiyyəti və milli-mənəvi dəyərlərimizdəki rolundan bəhs ediblər.

* * *

İyunun 10-da DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağcabədi rayonu Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli" mövzusunda konfrans keçirilib. Tədbirdə rayon ictimaiyyətinin və pedaqoji kollektivlərin nümayəndələri, şəhər məktəblərinin direktorları, ictimai fəal gənclər və dindarlar iştirak ediblər.

Konfransda Heydər Əliyev Mərkəzinin direktoru Məhsəti Ağayevanın "Heydər Əliyev şəxsiyyəti multikultural və tolerant dəyərlər işığında" və DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri Əlizadə Nəcəfovun "Heydər Əliyevin siyasi fəaliyyətində tolerantlığın Azərbaycan modeli" mövzularında məruzələri dinlənilib.

Konfransda həmçinin Ağcabədi şəhər 8 saylı tam orta məktəbin direktoru Anar Qasımov, YAP Ağcabədi rayon təşkilatının məsləhətçi-təlimatçısı Mehman Novruzov, Muğanlı kənd məscidi dini icmasının sədri Süleyman Ağayev, Ağcabədi RİH Aparatının İctimai-siyasi və humanitar məsələlər üzrə şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Təyyar Hacıyev də məruzələrlə çıxış ediblər.

* * *

DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Astara Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Multikultural dəyərlər milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir" adlı tədbir keçirilib.

Lənkəran bölgəsi üzrə şöbənin əməkdaşı Hatəm Gülməmmədov, Astara Rayon İcra Hakimiyyəti Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin əməkdaşı Səlimə Nəsirova, 2 nömrəli məktəbin nümayəndəsi Murad Baratzadə, müəllimlər və şagirdlərin iştirak etdiyi tədbirdə ölkədəki multikultural və tolerant dəyərlərin tarixi köklərindən bəhs edilib.

* * *

İyunun 13-də Zaqatala rayonunda DQİDK-nın Zaqatala rayonu Yuxarı Tala kənd məscidi və Zaqatala rayonu Dombabinə kənd məscidi dini icmalarına ayırdığı layihə vəsaiti hesabına nəşr olunmuş "XIX Əsr Azərbaycanın Şimal-Qərb bölgəsində (Qanıx-Həftəran vadisi) Dini Həyat, Elm və Mədrəsələr" adlı kitabın təqdimat mərasimi keçirilib.

Çıxışlarda layihə çərçivəsində çap olunan kitabın oxuculara Azərbaycanın tarixi dini keçmişi və günümüzədək qorunub saxlanan ənənəvi dini həyatı ilə bağlı dərin məlumatlar əldə etməyə imkan verdiyi qeyd olunub. Bildirilib ki, Dövlət Komitəsi bundan sonra da bu cür layihələrə dəstək verəcəkdir.

* * *

İyunun 23-də DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Abşeron Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində "Zərərli vərdişlərə qarşı mübarizə yolları" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə rayon idarələrinin nümayəndələri, Abşeron rayonunda fəaliyyət göstərən təhsil müəssisələrinin müəllimləri və gənclər iştirak ediblər.

"26 iyun - Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə günü"nə həsr olunan tədbirdə cəmiyyətdə zərərli vərdişlərin qarşısının alınması üçün maarifləndirmə işinin aparılmasına böyük ehtiyac olduğu bildirilib. Vurğulanıb ki, maarifləndirmə işi düzgün qurulduqda nəinki narkomaniyaya qarşı, digər bütün zərərli vərdişlərə qarşı ciddi nəticələrin ortaya qoyula bilər.

# İslamafobiyanı kimlər və necə yaradırlar?

Bu gün dini, siyasi, ideoloji ziddiyyət səbəbindən baş qaldıran münaqişələr və dağıdıcı müharibələr bəşəriyyətin nəinki uzaq, hətta yaxın gələcəyini də şübhə altına alır. Qloballaşma nəticəsində xalqların, millətlərin qarşılıqlı anlaşmasında yaşanan çətinliklər pik həddə çatıb. Ünsiyyət, humanizm və sevgi öz yerini şəxsi eqonun, maraqların və ambisiyaların təmin edilməsinə verib. Başqalarının mədəniyyətinə, adət-ənənələrinə qarşı "məndən olmadığı üçün mənim deyil" müstəvisində laqeyd münasibət formalaşıb, hətta bu münasibətdən maraqlarının və ambisiyalarının təmin olunması üçün istifadə edən dairələrin olduğu heç kəsə sirr deyil. Bütün dünyaya nadir tapılan hind qumaşı kimi təqdim edilən, hətta müqəddəsləşdirilib əldə bayrağa çevrilən Qərb ideyalarının digər ölkələrə müxtəlif, bəzən ən çirkin vasitələrlə "inyeksiyası"na cəhdlər edilməsi və şərqli-qərbli kimi qərəzli, təhlükəli bölgü aparmaq vəziyyəti daha da alovlandırır. Bütün bu neqativ proseslərin fonunda multikultural təhlükəsizlik və dialoq anlayışının əhəmiyyəti bir daha ön plana çıxır. Ancaq bu gün Qərbin açıq, yaxud gizli şəkildə hər hansı etiqad və ya fərqli mədəniyyət daşıyıcılarına demokratiya pərdəsi altında təzyiq göstərməsi acı təəssüf doğurur. Qüvvələr balansının dəyişdiyi müasir dünyada "köhnə qitəçilər"in milli-dini azlıqların hüquqlarının müdafiəsi adı altında digər dövlətlərin daxili işlərinə müdaxilə etməsi "öz gözündə tiri görməyib, başqasının gözündə çöp axtarmağa" bənzəyir.

İnsan hüquqlarını irəli çəkərək dünyəvi sülhə nail olmaq məqsədilə yazılmış Ümumdünya İnsan Hüquqları Bəyannaməsini əldə bayraq tutaraq, vicdan azadlığının aliliyindən dəm vuran bu cür dairələr özləri vicdan azadlığını pozur, üstəlik, bunu edərkən qarşı tərəfi ləkələməkdən, şantaj etməkdən də çəkinmirlər. Haqqında bəhs etdiyimiz Bəyannamənin 18-ci maddəsində deyilir: "Hər bir insan düşüncə, vicdan və din azadlığı hüququna malikdir: bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə, dini təlimdə, ibadətdə və dini mərasim qaydalarının yerinə yetirilməsində açıq və özəl qaydada etiqad etmək azadlığı daxildir". 19-cu maddədə isə hər kəsin öz əqidəsində qalmaq, həmçinin, istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq, həmçinin, yaymaq azadlığına sahib olduğu vurğulanır. Lakin son dövrlər Qərbdə bəzi media orqanlarının İslamı terror dini, müsəlmanları isə terrorçu kimi qələmə verməsi, eyni zamanda İslam mərkəzlərinin irqçi hücumlara məruz qalması artan islamafob meyillərin təzahürüdür.

Demokratiya, qanunun aliliyi, insan hüquqlarına hörmət kimi ali dəyərlərin Avropada doğulduğu hesab edilir, ancaq bu gün Qərb dünyasında müxtəlifliklərin qarşıdurmalara zəmin hazırladığı və miqrantların işsizliyə, iqtisadi böhrana gətirib çıxardığını əsas gətirən irqçi, nasist, islamafob partiyaların daha çox səs topladıqları bir faktdır. Bu inkarolunmaz həqiqətlər, təbii ki, bəzi Qərb dairələrinin irqçi, islamafob fəaliyyətlərinin "məhsuludur". Ona görə də hökumətlər miqrantlara qarşı sərt tədbirlər görmək "məcburiyyətində qalır", tanınmış elm və siyasət adamları isə multikulturalizmin iflasa uğradığı haqda açıq bəyanatlar səsləndirməklə onları dəstəkləyirlər. Narahatlıq doğuran bu cür bəyanatlar sanki Qərb cəmiyyətinin rifah dövründə ikən nəzarət altında saxlanılan, ancaq ani qığılcımla "metastaz" verən patoloji xəstəliyidir.



Tarixə nəzər salsaq, Qərbin uzun əsrlər boyu özünü formalaşdırarkən İslam əleyhdarlığını vasitəyə çevirdiyini aydın şəkildə görərik. Bu gün həmin tarixi təcrübə müxtəlif şəkillərdə qarşımıza çıxmaqdadır. Keçmişdə yaşanılmış və günümüzdə də bəşəriyyətin yaddaşında qara ləkə kimi qalan hadisələr sanki 2001-ci il sentyabrın 11-də Amerikada baş vermiş terror aktından sonra yenidən alovlanmağa başlandı. Bu terror aktı Qərb-Şərq münasibətlərində dönüş nöqtəsi oldu. Həmin vaxtdan etibarən bir çox dünya KİV-inin və siyasətçilərinin daim gündəmdə saxladığı islamafobiya Qərb cəmiyyətinin sağalmaz xəstəliyinə çevrildi. Bu anlayış özündə İslam dininə antipatik yanaşmanı, müsəlmanlara qarşı diskriminasiyanı dəstəkləyən düşüncəni əks etdirsə də, bir çox təhlilçilərin fikrincə, o, düşmən axtarışında olan Qərb cəmiyyətinin uğurlu uydurması kimi şərh edirlər.

Ötən ilin sonlarında ABŞ İslam Əlaqələri Şurasının nəşr etdiyi hesabatda 2015-ci ildə təkcə bu ölkədə məscidlərə qarşı 75 hücum və hədə-qorxu hadisəsinin baş verdiyi və bunun 2009-cu ildən bəri qeydə alınan ən böyük göstərici olduğu bildirilib. "New York Times" qəzeti də Amerikada müsəlmanlara qarşı hücumların Parisdə törədilmiş terror hadisəsindən sonra üç dəfə artdığını xəbər verib.

11 sentyabr hadisələrindən bütün müsəlmanlara və ümumilikdə İslama qarşı başladılan gözdənsalma kampaniyası bu gün Avropada davam etdirilir. İslam düşmənçiliyi qabardılaraq müsəlmanlara təzyiqlər göstərilir, insan hüquq və azadlıqları heçə sayılaraq müsəlmanlar konstitusion hüquqlarından məhrum edilir, bu da azmış kimi, şəxsi həyatlarına müdaxilələr olunur. Fransa və Belçikada niqabın ictimai yerlərdə tamamilə yasaqlanması, Lüksemburq və İsveçdə, həmçinin, İsveçrə, Norveç, İslandiya və Polşada dini qurbanların kəsilməsinə məhdudiyyətlər qoyulması Qərbdə din azadlığı ilə bağlı ikili standartların hökm sürdüyünün göstəricisidir. Bundan başqa, təqribən 400 min müsəlmanın yaşadığı İsveçrədə ilk dəfə minarə inşasına qadağa qoyulması dini azadlığın haqsız olaraq məhdudlaşdırılması və bu ölkədə müsəlmanlara qarşı ayrı-seçkilik edilməsinin bariz göstəricisidir. Ekspertlərin rəyinə görə, bu cür qadağalar dini deyil, daha çox, sosial xarakterlidir və müxtəlifliklərdən qorxan mühafizəkar partiyalar, qruplar tərəfindən qaldırılır. Bu qadağalar onlar üçün sadəcə nəzarəti əldə saxlamağın bir yoludur. Belə ki, müsəlmanların Avropaya köçü həm də qloballaşmanın tərkib hissəsidir. Bəzi insanlar isə qloballaşmadan və ətraf aləmin onların nəzarətindən kənar şəkildə dəyişməsindən qorxurlar. Lakin milyonlarla müsəlmana ev sahibliyi edən Avropada onlara göstərilən bu cür mənfi münasibət müsəlmanların gələcəyinə dair ciddi suallar ortaya qoyur.

Federal İrqçilik və Ayrı-seçkilik Komissiyasının hazırladığı hesabat son bir ildə İsveçrədə irqçiliyin artdığını meydana çıxarıb. Komissiyanın sədri Martina Brunşviq Qraf bunun Avropada baş verən böyük köç dalğası və terror hadisələrindən qaynaqlandığını bildirib. Onun sözlərinə görə, 2016-cı ilin ilk 5 ayının sonunda irqçilik və ayrı-seçkilik zəminində baş verən hadisələrin sayı 240-ı keçib və müvafiq tədbirlər görülməyəcəyi təqdirdə ilin sonunadək bu rəqəm daha da arta bilər.

Daha bir Avropa ölkəsi olan Almaniyada da müsəlmanlar ağır cinayətlərdə günahlandırılır, izlənilir və hücumlara məruz qalırlar. Ölkə Konstitusiyasında, o cümlədən qanunlarda vicdan azadlığı əhəmiyyətli mövqeyə sahib olduğu halda, söhbət İslamdan və müsəlmanlardan düşən kimi Konstitusiya və qanunlar heçə sayılır.

Üstəlik, İslam əleyhdarı kimi tanınan Almaniya üçün Alternativ Partiyasının (AfD) bu yaxınlarda yaydığı açıqlamada İslamın ölkə Konstitusiyası ilə uyğun gəlmədiyini iddia edərək bundan sonra siyasətlərinin bu dinə qarşı yönələcəyini bildirməsi müsəlmanlara qarşı ayrı-seçkiliyin pik həddidir. "Bu gün Almaniyada demokratiya və azadlıq üçün ən böyük təhlükə İslamdır" - şəklində çıxışlar edən partiya sədrinin köməkçisi, eyni zamanda Avropa Parlamentinin millət vəkili olan Beatriks fon Ştroxun "qaçqınların Almaniyaya girməsinə, lazım gələrsə, silahla mane olmaq lazımdır" şəklində çıxışları da bu ölkədə dini ayrı-seçkiliyin hansı səviyyədə olduğunu göstərir. Ən maraqlısı isə rəsmi dairələrin bu cür bölücü açıqlamalar qarşısında sükutunu qorumasıdır.

Göründüyü kimi, qlobal qaçqın böhranı, siyasi çəkişmələr və iqtisadi əlaqələrin pozulması son bir neçə ildə dünyada dini etiqad azadlığı durumunun pisləşməsinə gətirib çıxarıb. Bütün bunların fonunda bu gün Azərbaycan dövləti dini və etnik dözümlülüyə, bərabərhüquqlu birgəyaşayışa əsaslanan, yüzilliklər ərzində formalaşmış zəngin mənəvi mədəniyyəti qoruyub saxlamağı və gələcək nəsillərə ötürməyi qarşısına əsas məqsəd kimi qoyub. Fəxrlə deyə bilərik ki, ölkəmiz konfessiyalar arasında ayrı-seçkilik etmir, bütün etiqadlara bərabər hüquqlar tanıyır və dünyəvilik sisteminin ən uğurlu, nümunə kimi qəbul olunan dövlət-din münasibətləri modelini – hansı ki, bu modeli də o, hardansa idxal etməyib, özü qurub, özü yaradıb - inkişaf etdirir.

Müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə dinlər və etnik qruplar arasındakı münasibətlərin möhkəmlənməsi və bu sahənin dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməsi, heç şübhəsiz, Ümummilli Lider Heydər Əliyevin alternativsiz siyasi xəttinin nəticəsidir. Ulu Öndərin dövlətçilik konsepsiyası hazırda ölkədə dini etiqad azadlığının və multimədəni harmoniyanın təminatçısı və himayədarı olan Prezident İlham Əliyev tərəfindən uğurla və uzaqgörənliklə həyata keçirilir. Böyük tarixə malik dini məbədlərimizin – məscidlərin, kilsələrin, sinaqoqların, ziyarətgahların və s. - dövlət



***Sadiq MİRZƏYEV,***
***Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri***

başçısının diqqət və qayğısı ilə təmiri, bərpası və yenidən qurularaq istifadəyə verilməsi bütün dünyaya nümunə göstəriləcək həqiqətdir. Son illərdə Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan Təzəpir, Bibiheybət, Əjdərbəy, Şamaxı Cümə məscidlərində geniş tikinti və yenidənqurma işləri həyata keçirilmişdir. Görülən bu işlərin davamı olaraq, 2014-cü ilin dekabr ayında özündə Azərbaycanın milli-dini ənənələrə sadiqliyini əks etdirən əzəmətli Heydər məscidinin açılışı olmuşdur. 2016-cı ilin fevralında isə Gəncədəki İmamzadə dini kompleksi əsaslı təmir və yenidənqurma işlərindən sonra dindarların istifadəsinə verilmişdir. Onu da qeyd etməliyik ki, ölkəmizdə 2 mindən artıq məscid mövcuddur. Təkcə dövlət başçısı İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə 140-dan artıq məscid inşa olunmuş, 200-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bununla yanaşı, 2008-ci ildə Bakıda katolik kilsəsinin açılışı olmuş, 2011-ci ildə şəhərin mərkəzində Dağ yəhudiləri üçün dövlət hesabına sinaqoq inşa edilmiş, ölkədəki əksər kilsə və sinaqoqlarda dövlət hesabına bərpa işləri həyata keçirilmişdir. Hazırda ölkədə 2 mindən çox məscid, 13 kilsə və 7 sinaqoq fəaliyyət göstərir.

Bu sahəyə UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ardıcıl və təqdirəlayiq fəaliyyətinin də xüsusi töhfələri var. Milli-mənəvi dəyərlərimizin qorunmasına, tarixi-mədəni abidələrimizin bərpasına böyük önəm verən Fondun bir sıra məscid və ziyarətgahları bərpa və təmir etməklə yanaşı, xristian və yəhudi abidələrinin bərpasına xüsusi diqqət yetirməsi təqdirəlayiq haldır.

Hər il dini icmaların inkişafı üçün dövlət tərəfindən milyonlarla manat vəsait ayrılması və bu vəsaitin ölkə ərazisində fəaliyyət göstərən dini qurumlar arasında ayrı-seçkilik aparılmadan paylanılması məhz Azərbaycan Respublikasının siyasi rəhbərliyinin iradəsi ilə baş verən və dünyəvi demokratik dövlətlərin tam əksəriyyətində rast gəlinməyən faktdır. Özü də çoxlarının həzm edə bilmədiyi fakt...

# Bölgələrdə "İnsan hüquqları aylığı" çərçivəsində tədbirlər keçirilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. İnsan Hüquqları üzrə Müvəkkil Elmira Süleymanovanın təşəbbüsü ilə hər il ənənəvi olaraq mayın 18-dən iyunun 18-dək dövlət qurumları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri və icmalar ilə birgə keçirilən "İnsan hüquqları aylığı" çərçivəsində respublikanın bütün şəhər və rayonlarında insan hüquqları ilə bağlı silsilə tədbirlər və müzakirələr təşkil olunur. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) də öz növbəsində bu məqsədlə Beyləqanda "Narkomaniyaya yox deyək!", Şirvanda "Multikultural dəyərlər və insan hüquqları", Şəkidə "Azərbaycanda insan hüquqlarına multikultural dəyərlərdə baxış", Zaqatalada "İslamda insan hüquqları", Qubada "Azərbaycanda insan haqları multikultural dəyərlər işığında" mövzularında, həmçinin İmişlidə və Füzuli rayonunun Horadiz şəhərində bir sıra tədbirlər keçirib. DQİDK əməkdaşlarının, rayon və şəhər icra hakimiyyəti nümayəndələrinin, din xadimlərinin, müəllim, şagird və tələbələrin, dindarların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə baş tutan tədbirlərdə insan hüquqları barədə məlumat verilib və ölkəmizdə mövcud olan multikultural dəyərlərə toxunulub. Bildirilib ki, insan hüquqları müasir dünyamızın hər bir demokratik dövləti tərəfindən prioritet hesab edilən mövzulardandır. Ölkəmizdə də insan hüquq və azadlıqlarının təmin edilməsi, onların müdafiəsi və daha da genişləndirilməsi dövlətin ən ali məqsədidir.



# Xaçmazda "Multikultural dəyərləri yaşadaq"adlı beynəlxalq festival keçirilib

İyunun 24-də Xaçmaz şəhərində Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzi, Xaçmaz Rayon İcra Hakimiyyəti və rayon Mədəniyyət və Turizm şöbəsinin təşkilatçılığı ilə "Multikultural dəyərləri yaşadaq" adlı beynəlxalq festival keçirilib.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev və tədbirə qatılan müxtəlif ölkələrin nümayəndələri şəhərin mədəniyyət və istirahət parkında ölkəmizdə yaşayan milli azlıqların mədəniyyətini əks etdirən sərgiyə baxıblar. Xaçmaz Şəhər İncəsənət Mərkəzində uşaq və incəsənət məktəbi şagirdlərinin ifaları və rəsm sərgisi nümayiş olunub. Rayon Tarix-Diyarşünaslıq muzeyinin həyətində pəhləvanlar öz bacarıqlarını nümayiş etdiriblər.

Nazir Əbülfəs Qarayev çıxış edərək "Multikulturalizm ili" çərçivəsində tədbirlərin Bakı ilə yanaşı, regionlarda da təşkilindən məmnunluğunu ifadə edib, festivalın keçirilməsində yaxından iştirakına görə rayon İcra Hakimiyyətinə və Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzə təşəkkürünü bildirib. Qeyd olunub ki, ölkəmizdə akkreditə olunmuş səfirliklərin nümayəndələrinin, xarici qonaqların iştirakı ilə keçirilən tədbirə gənc mədəniyyət işçilərinin də qoşulması sevindirici haldır.

Festival çərçivəsində İstanbul Böyükşəhər Bələdiyyəsinin mədəniyyət dərnəyi ilə Xaçmaz Rayon Mədəniyyət Mərkəzi arasında, həmçinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzlə ilə Belarus Respublikası Xalq Sənətləri və Mədəni Maarifləndirmə İşləri üzrə Metodiki Mərkəz arasında əməkdaşlığa dair memorandumlar imzalanıb.

Tədbir "Multikulturalizmin alternativi yoxdur" mövzusunda elmi-praktik konfransla davam edib.

# Dini maarifləndirmə layihəsi çərçivəsində



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən bölgələrdə tədbirlər uğurla davam etdirilir. Bu qəbildən tədbirlər Ucar rayonu Çiyni kənd "Hacı Ağamirzə" məscidi, Quba rayonu Təngəaltı kəndi "Seyidlər" məscidi, Neftçala rayonu "Sahib Əzzaman" məscidi, Salyan rayonu "Mirəşrəf ağa" məscidi, Sabirabad rayonu mərkəzi "Heydər məscidi", Oğuz rayonu Xaçmaz kənd məscidi, Xəzər rayonu Binə qəsəbəsi "İmam Rza", Ağdaş şəhəri "Üç qovaq" məscidi, Xızı rayonu Giləzi qəsəbəsi "İmam Hüseyn" məscidi, Quba rayonu Xucbala kənd məscidi, Ağcabədi rayon "Seyid Mürsəl Ağa" məscidi, Quba rayonu Zizik kənd məscidi, Abşeron rayonu Məhəmmədi kənd "Cümə" məscidi dini icmaları tərəfindən təşkil olunub.

"Məzhəblərarası tolerantlıq", "Milli-mənəvi dəyərlərimizin təbliği və dini radikalizmlə mübarizə", "Multikulturalizm və dini dözümlülük", "Alkoqolizm və zərərli vərdişlərlə mübarizədə dindarların rolu" ,"Dini ekstremizm və radikalizmin multikultural cəmiyyət üçün təhlükələri", "Qəhrəmanlar unudulmur", "Nümunəvi dindar və mötədil müsəlman şəxsiyyəti", "Milli-mənəvi dəyərlərin təbliğində və radikalizmə qarşı mübarizədə din xadimlərinin rolu", "İslamda qardaşlıq prinsipi", "İslamda ailə dəyərləri", "Vətəni sevmək imandandır", "Dinimizi düzgün tanıyaq və düzgün tanıdaq!", "Multikulturalizm və məzhəblərarası tolerantlıq", "Dini radikalizmlə mübarizədə mötədil dindarların rolu" və s. mövzularda keçirilən tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları, dini icma üzvləri, dindarlar, ağsaqqallar, ziyalılar və gənclər iştirak ediblər. Çıxışlarda Azərbaycanın dövlət-din münasibətləri modeli, mövcud dini durum, ölkəmizdə tarixən formalaşmış tolerantlıq və multikulturalizm ənənəsi, dini radikalizm və ekstremizmlə mübarizə metodları, eyni zamanda dövlət başçısı cənab İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" elan etməsinin əhəmiyyəti barədə geniş məruzələr dinlənilib.

Dini maarifləndirmə sahəsində görülən işlərin əhəmiyyətindən danışılan tədbirlərdə qeyd olunub ki, layihələr çərçivəsində sağlam dini biliklərə söykənən silsilə maarifləndirici tədbirlər həyata keçirilir. Müasir dini-etik zəmində baş verən münaqişələrin fonunda milli-mənəvi, eyni zamanda ənənəvi dini dəyərlərimizin təbliğinin vacibliyi önə çəkilib və vətən sevgisi, ailə dəyərləri, pis vərdişlərdən uzaq durmağın yolları xüsusilə müzakirə olunub.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.








# Yaradılış sirri

**"...Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!"**

(Muminun, 14)



**(IV hissə)**

## Adəm və Həvva

Adəmlə əlaqəli mövzularda yer alan başqa bir məqam Həvvanın varlığıdır. İblislə Allah arasında gedən bu dialoqlar zamanı Həvva var idimi? Yoxsa mənşəyi bilinməyən bir çox rəvayətdə qeyd olunduğu kimi, sonradan Adəmin sol qabırğasından yaradılmışdı? Adəm fərd kimi deyil, növ olaraq qəbul edildikdə məsələ aydınlaşır. Yəni insan cəmiyyəti mövcud imiş və onlardan biri də Həvva olmuşdur. Adəmlə Həvva da Quranda nümunə kimi göstərilmişdir. Quranla yanaşı, digər səmavi kitablarda da Həvva Adəmlə yanaşı, onun itaətsizliyə səbəb olması kimi təqdim edilir.

## Qadağan edilmiş meyvə

Yəhudilik və Xristianlıqda Adəmlə Həvvaya qadağan edilən ağac yaxşılıq və pisliyin fərqinə varma simvolu kimi təqdim olunur. İslamda isə həmin ağacın növünə əsla işarə edilmir. Hərçənd bəzi rəvayətlərdə onun alma, əncir, hətta buğda olduğu göstərilir. Baxmayaraq ki, onun necəliyi və növü əsla önəmli deyil. Qadağan edilən meyvə Adəm övladının düşünən beyninin süzgəci idi. İslam dini Yəhudilik və Xristianlıqdan fərqli olaraq, bu məsələyə başqa cür yanaşır. İslama görə, Adəmi yoldan çıxaran heç də Həvva deyil, onların hər ikisinə vəsvəsə edən şeytandır. Quranda keçən "vəsvəsə ləhumə" (o, iki nəfərə vəsvəsə etdi) və "və əzəlləhumə" (və o, iki nəfəri yoldan azdırdı) ifadələri buna açıq-aşkar sübutdur.

Tövratda Adəmin 930 il yaşadığı bildirilir. Quran isə bu barədə hansısa məlumat vermir. Hərçənd hədislərdə bu rəqəm 1000 il göstərilir. Niyə Müqəddəs Kitabımız bu barədə susur? Qənaətimizə görə, Quran insan oğlunun sahib olduğu bilgi xaricində, başqa sözlə desək, bilə bilmədiyi və bilməsinə ehtiyac duymadığı məlumatların üzərində dayanmır. Və haradasa bu barədə xəbər verilirsə, o, sadəcə ibrətamiz işarələrdir. Adəmin harada dəfn olunduğu barədəki rəvayətlər də kifayət qədər fərqli, hətta ziddiyyətlidir. Belə ki, bəzi rəvayətlərdə (bu rəvayət onun cənnətdən qovulduğunu dəstəkləyənlər tərəfindən nəql olunur) onun Hindistan yarımadasında, bəzi rəvayətlərdə isə ilk ibadətgahın yerləşdiyi Məkkə şəhərində, daha dəqiq desək, Əbu Qubeys dağında dəfn olunduğu xəbər verilir. Ümumiyyətlə, nəinki Adəmin, hətta ondan sonrakı peyğəmbərlərin belə, harada dəfn olunduğu barədə dəqiq məlumatlar yoxdur.

## Adəmin kitabı

Adəmin ilk peyğəmbər olduğuna dair verilən məlumatlarda ona 21 səhifəlik kitabın nazil edildiyi də bildirilir. Kitab ifadəsi barədə yaranan fikir ayrılıqlarının əsas səbəbi kimi bəzilərinin kitab deyildikdə iki cild arasında qərar tutan yazılı səhifələri nəzərdə tutması göstərilir. Qurani-Kərimə görə, kitab məlumatlar toplusudur ki, bəzi ayələrdə bu, "suhuf" olaraq keçir. Və əgər Adəm ilk peyğəmbər olubsa, ona verilən bilgi toplusuna da kitab deyilə bilər.

## Yaş həddi

Həzrət Adəmin ilk insan və ilk peyğəmbər olduğunun üzərində dayansaq, onun bu vəzifəyə hansı yaşda çatması, uşaqlıq, yeniyetməlik və cavanlıq dövrlərinin necə keçməsi barədə bir sıra suallar yarana bilər. Halbuki, bu barədə heç bir məlumat yoxdur. Əldə olan əsas məlumat onun peyğəmbərlik dövründən sonrakı həyatı barədədir.

## İlk ibadətgah

Quran yer üzündə inşa olunan ilk ibadətgahın Məkkədəki Kəbə evinin olduğunu vurğulayır: "Həqiqətən, insanlar üçün ilk bina olunan ev (məbəd) Məkkədəki evdir ki, o, şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır" (Ali-İmran, 96). Əgər ilk ibadətgah Kəbə olubsa, onun bəşərin ilk nümayəndəsi Adəmə aid olması da mümkündür. Sonrakı dövrdə İbrahim peyğəmbərlə (ə) oğlu İsmail (ə) köhnə təməlin üzərində yenisini inşa etmişlər.

Allah-Təala niyə yaratdı?

Allahın heç nəyə, o cümlədən bizə ehtiyacı olmadığı halda, nə üçün bizi yaratdı?

Quranda bu sualın dörd cavabı var:

1. Məqsəd və səbəb:

"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!" (Zəriyət, 56).

2. Allaha dua edilsin deyə:

**"(Ya Rəsulum, bu Məkkə müşriklərinə) de: "Əgər ibadətiniz olmasa, Rəbbimin yanında nə qədir-qiymətiniz olar? Siz (Quranı və öz Peyğəmbərinizi) təkzib etdiniz. Buna görə də (nə dünyada, nə də axirətdə əzab) yaxanızdan əl çəkməyəcəkdir!"** (Furqan, 77).

3. Həyatın imtahan olduğunu bəyan etmək üçün:

**"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, bağışlayandır"** (Mulk, 2).

4. Mərhəmətin qaynağı olaraq:

**"Rəbbinin mərhəmət etdiyi kimsələr istisnadır. (Rəbbin) onları bunun üçün (belə bir ixtilafa düşdüklərinə görə xoşbəxt və bədbəxt, mömin və kafir, cənnət və cəhənnəm əhli) yaratmışdır..."** (Hud, 119).

## Məntiqi cavablandırma

Allahın əzəli və əbədi adlarından biri də "Xaliq"dir (Yaradan). Yaradıcı olana isə "Nə üçün yaratdın?" sualı verilməz. Əgər günəş yer üzünü işıqlandırırsa, "Niyə günəş işıq saçır?" Məsələn, dilimizdə "filankəs əliuzunluq edir", "filankəs çox əliaçıq insandır" və ya "əlim üstündədir" kimi ifadələrdən istifadə olunur. Azərbaycan dili ilə azacıq tanış olan istənilən şəxsdən bunların mənasını soruşsan, "Bunlar məcazdır", - deyə cavab verəcək və birinci ifadədə məqsəd birinin başqalarının malına əl uzatdığını, ikincinin səxavətli olduğunu, üçüncünün isə nəyinsə və ya kimlərinsə nəzarət altında olduğunu vurğulayacaqdır. Deməli, "Allahın əli" ifadəsi də məcazi anlam daşıyır. Çünki Allaha hər hansı fiziki xüsusiyyət nisbət edilə bilməz. Çünki fiziki varolma yaradılmışlara məxsus xüsusiyyətdir. Allahın zatı barədə söylənilən ifadələrdən



soruşulmaz. Çünki bu, onun zati xüsusiyyətidir. Yəni varlığının ayrılmaz tərkib hissəsidir. Allaha gəlincə, Onun sifətləri yaradılış aləmində təcəlli etməlidir. Deməli, əgər Allah üçün yaradıcı ismindən istifadə olunursa, bu kimi suallar verilməməlidir. Qüdsi hədislərdən birində bu sualla bağlı Allah-Təalanın dilindən deyilir: "Mən gizli bir xəzinə idim, bilinməyi istədim". Hətta bəzən belə sual da verilir: "Allah məni yaratmazdan əvvəl niyə məndən bunu soruşmadı? Soruşsaydı, bəlkə mən yaradılmaq istəmədiyimi deyəcəkdim". Sualı verməzdən əvvəl bir qədər düşünmək lazımdır. Çünki bu sualı vermək üçün insan oğlu ilk növbədə var olmalıdır. Var olmadan, yəni şüur sahibi olmadan necə belə bir sual vermək mümkündür?!

## İki əlimlə yaratdım

"Sad" surəsinin 75-ci ayəsində insanın yaradılışı barədə belə bir ifadə keçir: **"(Allah) buyurdu: "Ey İblis! Sənə mənim Öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?".** Bildiyimiz kimi, hər dilin özünəməxsusluğu var. Və hər dildə kəlmələrin həqiqi və məcazi mənalarda işləndiyi yerlər var. Birində deyilir: **"Zehninə hər nə gəlirsə bil ki, o, Allah deyil".** Bunu Quranın özü də təsdiqləyir: **"...Ona bənzər heç bir şey yoxdur..."** (Şura, 11). "Əl" kəlməsi Allah barəsində işləndikdə güc və səxavəti, insan haqqında işləndikdə isə üzv mənasını ifadə edir. "Fəth" surəsinin 10-cu ayəsində buyurulur: "...Allahın (qüdrət) əli onların əllərinin üstündədir..." Ayə müsəlmanların Peyğəmbərə beyəti ərəfəsində nazil olmuşdur. Məlum məsələdir ki, beyət zamanı iştirakçılar əllərini bir-birlərinin əllərinin üzərinə qoyurlar. Deməli bu ifadədə məqsəd Allahın belə bir beyətə razı olduğunu bildirməkdir. Bununla yanaşı, Quranın digər ayələrində də "yəd" (əl) kəlməsi güc mənasında işlənmişdir. Məsələn, "Zəriyət" surəsinin 47-ci ayəsində buyurulur: [vəssəma-ə bənəynahə bi əydin və inna ləmusiun] - "Biz göyü qüdrətimizlə (qüdrət əlimizlə) yaratdıq və Biz (istədiyimiz hər şeyi yaratmağa) qadirik. (Və ya: Biz göyü qüdrətimizlə yaratdıq və Biz onu genişləndirməkdəyik)".



*İsmayıl ƏHMƏDOV, ilahiyyatçı*

# Bakıda "Multikulturalizm" ədəbi-bədii, elmi-publisistik jurnalının təqdimatı keçirilib



**İyunun 23-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında "Multikulturalizm və kitab" adlı elmi konfrans və yenicə çapdan çıxmış Multikulturalizm" ədəbi-bədii, elmi-publisistik jurnalının təqdimatı keçirilib.**

Konfrans Mədəniyyət və Turizm Nazirliyinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Prezidenti yanında Bilik Fondu və Milli Kitabxananın birgə təşkilatçılığı ilə reallaşıb.

Tədbirdə Milli Kitabxananın direktoru Kərim Tahirov çıxış edərək konfransın Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planına uyğun olaraq keçirildiyini diqqətə çatdırıb. K.Tahirov bu yöndə baş tutan tədbirlərin regionlarda da keçirildiyini deyərək, multikulturalizmin Azərbaycanda dövlət siyasətinin nümunəvi modeli olmasından danışıb.

Qeyd olunub ki, multikulturalizm ölkəmizin milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların harmonik şəkildə yaşayışının göstəricisidir. Hazırda təmsil etdiyi qurumun bu istiqamətdə bir sıra tədbirlər təşkil etdiyinə toxunan kitabxana direktoru vurğulayıb ki, bundan sonra da bu sahədə silsilə tədbirlər davam edəcək.

Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərov çıxış edərək multikulturalizm ənənələrindən və ölkəmizdə hökm sürən tolerant mühitin əhəmiyyətindən söz açıb.

Qeyd olunub ki, hazırda beynəlxalq aləmdə etnos və din anlayışı sözügedən dəyərlərin əsas meyarlarındandır. Bu mənada, Azərbaycanda müxtəlif dinlərə və dillərə aid olan kitablar çap olunaraq təbliğ edilir. Bu istiqamətdə heç bir maneənin olmadığını bildirən N.Çəfərov ölkəmizdə multikulturalizmin tarixi ənənələrinin hələ qədimdən başladığını qeyd edib.

Vurğulanıb ki, hazırda bu istiqamətdə əldə olunan uğurlar ölkə başçısının yorulmaz əməyinin və uzaqgörən siyasətinin nəticəsidir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Nariman Qasımzadə çıxış edərək Azərbaycanın multikulturalizm ənənələri ilə bütün dünyanın diqqətini cəlb etdiyini, multikulturalizmin Azərbaycan mədəniyyətinin cövhəri olduğunu, xalqımızın mədəniyyətində başqa xalqlara münasibətin anlaşıqlı və mehriban olmasının əsrlərdən gəldiyini diqqətə çatdırıb.

Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid, "Multikulturalizm" ədəbi-bədii jurnalının baş redaktoru Fəxri Uğurlu multikultural ənənələrin inkişaf etdirilməsinin dövlət siyasətinin prioritetini təşkil etdiyini söyləyiblər.

Bildirilib ki, "Multikulturalizm" ədəbi-bədii, elmi-publisistik jurnalının işıq üzü görməsi bu istiqamətdə aparılan işlərə dəstək olmaq məqsədi daşıyır.

Sonra jurnalının təqdimatı keçirilib.

Konfransın ikinci hissəsində sözügedən mövzu ilə bağlı məruzələr dinlənilib.

Həmçinin, konfrans çərçivəsində Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanmış "Azərbaycanda multikulturalizm" elektron məlumat bazası da təqdim edilib.

Daha sonra qonaqlar "Multikulturalizm Azərbaycanın həyat tərzidir" adlı kitab sərgisi ilə tanış olublar.

# "Jewish Journal" Azərbaycanda yəhudilərə tolerant münasibətdən yazır

**Amerikanın "Jewish Journal" qəzeti Azərbaycan Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayevin "Müsəlman torpağında yəhudi parlamentariləri" sərlövhəli məqaləsini dərc edib. Müəllif məqalədə Birləşmiş Ştatlarda artan antisemitizm problemindən və qeyri-tolerant şəxslərin amerikalı yəhudilərə hücumlarından yazır.**

"Anti-Defamation League"in hesabatına görə, 2015-ci ildə ABŞ-da yəhudilərə fiziki və virtual hücumların sayı ondan əvvəlki illə müqayisədə 3 faiz çoxalıb. M.Yevdayev qeyd edir ki, səbəbindən asılı olmayaraq, yəhudilərə qarşı tolerantlığın zəifləməsi narahatlıq doğurur. O vurğulayır ki, bu cür hal əhalinin əksər hissəsinin müsəlmanlardan ibarət olduğu Azərbaycanda heç vaxt baş verə bilməz.

Siyasi arenada tolerantlıqdan yazan müəllif bildirir ki, həm Azərbaycan Xalq Cümhuriyyəti və sovet dövründə, həm də Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra yəhudi millətinin nümayəndələri burada yüksək vəzifələri tutublar. Cümhuriyyət dövründə yəhudilər Azərbaycan parlamentinə seçiliblər. Yəhudi Yevsey Gindes 1920-ci ildə bolşevik işğalına qədər cümhuriyyətin səhiyyə naziri olub. Sovet dövründə digər respublikalardan xeyli sayda yəhudi Azərbaycana məhz buradakı tolerantlıq mühitinə görə gəlib. Tolerantlıq ənənələri 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra da davam edib. Müəllif yazır ki, Heydər Əliyev Prezident seçiləndən sonra dini və etnik tolerantlıq dövlət siyasətinin mühüm hissəsinə çevrilib və hazırda Prezident İlham Əliyev tərəfindən daha da möhkəmləndirilib.

M.Yevdayev daha sonra məqalədə Milli Məclisin deputatı Dağ Yəhudiləri İcmasının üzvü və 2005-ci ildən parlamentdə 53-cü Quba-Qusar seçki dairəsinin seçicilərini təmsil edən Yevda Abramov haqqında məlumat verib. O qeyd edib ki, Qırmızı Qəsəbənin əsası 1742-ci ildə Quba xanı Hüseynqulu xan tərəfindən qoyulub. Y.Abramov Qırmızı Qəsəbədə doğulub və iki dəfə Milli Məclisə deputat seçilib. O, Milli Məclisdə insan hüquqları komitəsi sədrinin müavini və Azərbaycan-İsrail parlamentlərarası dostluq qrupunun rəhbəridir. Müəllif yazır ki, Y.Abramov Azərbaycanla müttəfiqləri arasında münasibətlərin inkişafı istiqamətində fəal çalışır və bununla bağlı müxtəlif ölkələrdə, o cümlədən İsrail, Fransa, İtaliya, ABŞ, Avropa və Yaxın Şərqin digər ölkələrində olub.

Müəllif məqaləsinin sonunda müxtəlif millətlərin nümayəndələri arasında qarşılıqlı əlaqələrin əhəmiyyətini, tolerantlığın və sülhün vacibliyini qeyd edir.


HOME NEWS OPINION HOLLYWOOD CULTURE BLOGS INFO SUPPORT THE JEWISH JOURNAL SEARCH

RECENT POSTS ON MOUNTAIN JEWS OF AZERBAIJAN
A Jewish Parliamentarian in a Muslim Land
Azerbaijan: A Country of Unusual Shia-Sunni Harmony
Reflections on Global Peace and the 7th Forum of the U.N. Alliance of Civilizations
The Meaning of Passover in Troubled Times

A Jewish Parliamentarian in a Muslim Land
by Milikh Yevdayev
6 hours ago

Yevda Abramov, Jewish Member of Parliament in Azerbaijan

I recently read an article published by the Huffington Post, discussing the current state of anti-Semitism in the United States. The article shed light on what has become a growing problem. One particular example stood out: it discussed recent anti-Semitic attacks on California Congressional candidate Erin Schrode. These shocking viral attacks taking place in 2016, even more so in California, a place known to

ADVERTISEMENT
Aberdeen
Some see a drone. We see the algorithm that runs it.
Aberdeen Israel Fund, Inc. (ISL)
Open your world >
PUT YOUR AD HERE

Sign up for our newsletter
More news and opinion than at Shabbat dinner.
SIGN UP

ABOUT THE AUTHOR
Milikh Yevdayev was elected the Head of the Community of Azerbaijan's Mountain Jews in 2012. Born in Azerbaijan's famous Red Village (Qırmızı Qəsəbə), which is one of...
Read more.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**Lənkəran rayonu Aşağı Nüvədi qəsəbə məscidi dini icması**
**Qeydiyyat tarixi: 17 iyun 2010-cu il**
**Qeydiyyat №-si: 100110A3 - 412**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Nurəli Cahangir oğlu və Seyfullayev Qasım Ağaxan oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Həsənov Səxavət Əliağa oğlu və Əliyev Qılman Cəfər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 27 may 2016-cı il**

**Tovuz rayon məscidi dini icması**
**Qeydiyyat tarixi: 15 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 - 97**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abbasov Mətləb Zahid oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Dəyişikliklərin qeydiyyat tarixi: 27 may 2016-cı il**

**Sabirabad rayonu Qaratəpə kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 27 oktyabr 2010-cu il**
**Qeydiyyat №-si: 100110A4 - 506**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şahmanov İskəndər İsmayılcan oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır. Taşdanov Dəmiralı Daşdan oğlu, Mövlüdov Bəxtiyar Hafiz oğlu, Məhəmmədiyev Cahangir Həmid oğlu, Nusratdinov Abbas, Məmmədov Cabir Fəyaz oğlu, Gövhərov Səlim Lütfi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Şahmanov İskəndər İsmayılcan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Məhəmmədiyev Cahangir Həmid oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 08 iyun 2016-cı il**

**Ucar rayonu Rəstəcə kəndi dini icması**
**Qeydiyyat tarixi: 11 may 1999-cu il**
**Qeydiyyat №-si: 276**

Ucar rayonu Rəstəcə kəndi dini icması (11.05.1999-cu ildə Ədliyyə Nazirliyinin kollegiyası qərarına əsasən 276 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27.05.2016-cı il tarixli, 02 a№-li protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi: 08 iyun 2016-cı il**

**Suraxanı rayon Qaraçuxur qəsəbə dini icması**
**Qeydiyyat tarixi: 02 aprel 2002-ci il**
**Qeydiyyat №-si: 89**

Suraxanı rayon Qaraçuxur qəsəbə dini icması təsisçilərinin 19.05.2016-cı il tarixli, 01 №-li protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi: 08 iyun 2016-cı il**

**Lənkəran rayonu Hirkan qəsəbə dini icması**
**Qeydiyyat tarixi: 17 sentyabr 2004-cü il**
**Qeydiyyat №-si: 279**

Lənkəran rayonu Hirkan qəsəbə dini icması təsisçilərinin 23.05.2016-cı il tarixli, 01 №-li protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi: 10 iyun 2016-cı il**

**ELAN**

Ucar rayonu Rəstəcə kəndi dini icmasının ilkin icma sənədləri, 11.05.1999-cu ildə Ədliyyə Nazirliyinin kollegiyası qərarına əsasən 276 nömrəli şəhadətnamə, möhür və ştamp naməlum şəraitdə itmişdir.

Cəmiyyət və Din
№ 06 (299) / İYUN 2016-cı il



# İranda Səfəvilər dövrünün abidəsi: Si o se pol körpüsü

İsfahan şəhərinin mərkəzindən axan Zayəndə çayı üzərindəki tarixi Si o se pol körpüsü möhtəşəmliyi ilə xarici turistlərin diqqətini özünə cəlb edir. "Pol" sözü fars dilindən tərcümədə körpü deməkdir. Si o se pol isə 33 arkası olan körpü kimi tərcümə edilir.

Bu körpü Səfəvi dövlətinin şahənşahı II Şah Abbas tərəfindən 1599-1602-ci illərdə tikdirilib. Uzunluğu 300 metr, eni 14 metr olan körpünün tikintisini II Şah Abbas gürcüs əsilli vəziri Allahverdi xana tapşırmışdı. Vəzir İranda, Azərbaycanda və Gürcüstanda fəaliyyət göstərən tanınmış memarları dəvət edərək körpünü xüsusi zövqlə tikdirib. Belə ki, 33 arkadan ibarət olan körpü yalnız çayı keçmək üçün deyil, həm də istirahət üçün nəzərdə tutulub. Körpünün üstündə bir neçə otaq inşa olunub ki, bunların birindən çayın suyunun artıb azalmasını müşahidə etmək üçün istifadə edilib. Otaqlardan biri xüsusi olaraq şahənşahın, digərləri isə saray əyanlarının gəzinti zamanı istirahəti üçün tikilib. Otaqların şəhərə və çaya baxan pəncərələri var. Müasir dövrdə bu körpü turistlərlə yanaşı, yerli əhalinin də gəzinti və istirahət yeridir.

# Polşadakı sovet heykəllərini muzeydə saxlamaq qərara alınıb

Polşanın hakimiyyət orqanları sovet dövründə bu ölkədə ucaldılmış 200-dən çox heykəl, monument və xatirə simvollarının sökməyə hazırlaşır. Sovet dövründən qalmış abidələri ölkənin şimalında, vaxtilə sovet hərbi bazasının yerləşdiyi Borne-Sulinovo şəhərinin yaxınlığında açıq səma altında yerləşən muzeydə saxlamaq planlaşdırılır. Parkın 2017-ci ilin sentyabr ayında açılması nəzərdə tutulur.

Polşa Dövlət Milli Xatirə İnstitutunun vitse-prezidenti Pavel Ukelski bildirib ki, hərbi qəbiristanlarda qoyulmuş abidələr sökülməyəcək.

O deyib: "Polşa dövləti müharibə dövründə həlak olmuş sovet əsgərlərinin məzarlarının qorunmasına bundan sonra da maksimum hörmətlə yanaşacaq".

# "Dünya şəhəri" turistlər üçün açıq elan olunub

Türkiyənin Qars şəhərində yerləşən və bir çox mədəniyyətə ev sahibliyi etdiyi üçün "Dünya şəhəri" olaraq xarakterizə olunan "Ani" abidəsi turistlərin ziyarəti üçün açıq elan olunub.



Bu tarixi abidə Qafqazdan Anadoluya açılan giriş qapısı kimi də dəyərləndirilir. Abidənin miladdan 6 min əvvələ aid olduğu ehtimal olunur.

Bütün dinlərin izlərinin rast gəlindiyi və çoxmədəniyyətlilikdən xəbər verən bu tarixi abidənin yaxın vaxtlarda UNESCO-nun Dünya İrsi Siyahısına daxil olunacağı gözlənilir.

## Yadigar söz

**Bernard Şou**
*(Böyük Britaniya yazıçısı)*

**Təbiətin boşluqlara dözümü yoxdur, harada ki insanlar həqiqətləri bilmirlər, onlar o boşluğu mövhumatla doldururlar.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (İYUL)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 3:27 | 5:14 | 12:44 | 17:57 | 20:31 | 21:53 |
| 2 | 3:28 | 5:14 | 12:44 | 17:57 | 20:31 | 21:52 |
| 3 | 3:29 | 5:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 4 | 3:29 | 5:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 5 | 3:30 | 5:16 | 12:45 | 17:57 | 20:31 | 21:51 |
| 6 | 3:31 | 5:16 | 12:45 | 17:57 | 20:30 | 21:51 |
| 7 | 3:32 | 5:17 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 8 | 3:33 | 5:18 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 9 | 3:34 | 5:18 | 12:46 | 17:57 | 20:29 | 21:49 |
| 10 | 3:35 | 5:19 | 12:46 | 17:57 | 20:29 | 21:48 |
| 11 | 3:36 | 5:20 | 12:46 | 17:57 | 20:28 | 21:48 |
| 12 | 3:37 | 5:20 | 12:46 | 17:57 | 20:28 | 21:47 |
| 13 | 3:38 | 5:21 | 12:46 | 17:56 | 20:27 | 21:46 |
| 14 | 3:39 | 5:22 | 12:46 | 17:56 | 20:27 | 21:45 |
| 15 | 3:40 | 5:23 | 12:46 | 17:56 | 20:26 | 21:44 |
| 16 | 3:41 | 5:23 | 12:47 | 17:56 | 20:26 | 21:43 |
| 17 | 3:42 | 5:24 | 12:47 | 17:55 | 20:25 | 21:42 |
| 18 | 3:44 | 5:25 | 12:47 | 17:55 | 20:24 | 21:41 |
| 19 | 3:45 | 5:26 | 12:47 | 17:55 | 20:23 | 21:40 |
| 20 | 3:46 | 5:27 | 12:47 | 17:54 | 20:23 | 21:39 |
| 21 | 3:47 | 5:27 | 12:47 | 17:54 | 20:22 | 21:38 |
| 22 | 3:48 | 5:28 | 12:47 | 17:54 | 20:21 | 21:37 |
| 23 | 3:50 | 5:29 | 12:47 | 17:53 | 20:20 | 21:36 |
| 24 | 3:51 | 5:30 | 12:47 | 17:53 | 20:19 | 21:35 |
| 25 | 3:52 | 5:31 | 12:47 | 17:52 | 20:19 | 21:33 |
| 26 | 3:54 | 5:32 | 12:47 | 17:52 | 20:18 | 21:32 |
| 27 | 3:55 | 5:33 | 12:47 | 17:51 | 20:17 | 21:31 |
| 28 | 3:56 | 5:34 | 12:47 | 17:51 | 20:16 | 21:30 |
| 29 | 3:58 | 5:35 | 12:47 | 17:50 | 20:15 | 21:28 |
| 30 | 3:59 | 5:35 | 12:47 | 17:50 | 20:14 | 21:27 |
| 31 | 4:00 | 5:36 | 12:47 | 17:49 | 20:12 | 21:25 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# 96 yaşında məzun oldu



Yaponiyanın Takamasu şəhərinin 96 yaşlı sakini Siqemi Hirata "Ginnesin rekordlar kitabı"nın versiyasına görə, dünyanın ən yaşlı ali məktəb məzunu adını qazanıb.

Hirata 1919-cu il sentyabrın 1-də doğulub. 2005-ci ildə 85 yaşında ikən poeziya ilə ciddi məşğul olmaq qərarına gəlib və Kioto Sənət və Dizayn Universitetinə qəbul olunub. Təhsilini başa vurmaq üçün ona 11 il vaxt lazım gəlib.

"Mənim növbəti hədəfim 100 il yaşamaqdır. Əgər o zaman yaxşı formada olsam, təhsilimi davam etdirmək və alimlik dərəcəsi almaq barədə düşünəcəyəm", - deyə Hirata təbəssümlə deyib.

Hazırda Siqemi Hiratanın 2 övladı, 5 nəvəsi və 4 nəticəsi var.

## KƏDƏRİN - KƏDƏRİMİZDİR, TÜRKİYƏ...



**İyunun 28-də İstanbulun Atatürk Hava Limanında törədilmiş qanlı terror aktı törədilib. Hadisə nəticəsində 43 nəfər həlak olub, 239 nəfər yaralanıb.**

**Terrorçulardan biri Dağıstan sakini olan Rusiya vətəndaşı, digər ikisi isə Qırğızıstan və Özbəkistan vətəndaşlarıdır.**

**İyunun 30-da keçirilmiş əməliyyat zamanı terror hadisəsi əlaqəli olan 13 nəfər saxlanılıb, onlardan 3-ü əcnəbidir.**

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 568

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894